RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN




№ 219 (9386) 8 OKTYABR 2023-cü il BAZAR

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



# İlham Əliyevin növbəti qlobal layihəsi

## Şərqi Zəngəzur Naxçıvanla birləşir, Ermənistan isə ona verilən daha bir şansı itirərək geostrateji proseslərdən kənarda qalır

Oktyabrın 6-da isə Azərbaycan daha bir geoiqtisadi layihənin gerçəkləşdirilməsi istiqamətində mühüm addım atdı. Zəngilan rayonunun Ağbənd qəsəbəsi yaxınlığında "Azərbaycan Respublikası hökuməti ilə İran İslam Respublikası Hökuməti arasında İran İslam Respublikasının ərazisindən keçməklə Şərqi Zəngəzur iqtisadi rayonu ilə Naxçıvan Muxtar Respublikası arasında yeni kommunikasiya bağlantılarının yaradılması haqqında Anlaşma Memorandumu" çərçivəsində avtomobil körpüsü və sərhəd-gömrük infrastrukturunun inşası, ərazidə sahilbərkitmə tədbirləri layihələrinin təməlqoyma mərasimi keçirildi və tikinti işlərinə başlanıldı. Bəlli oldu ki, yeni layihəyə əsasən 7 gediş-gəliş xətti olacaq buraxılış məntəqəsi, eləcə də avtomobil körpüsü gündəlik ən azı 1100 yük-nəqliyyat (ixrac, idxal və tranzit malları) vasitələrini qəbul etmək imkanına malik olacaq.

→ 4

## Ədalət və İnkişaf Partiyası yarandığı gündən Türkiyə dövləti və xalqı qarşısında şərəflə xidmət etmişdir

### Türkiyə Respublikasının Prezidenti zati-aliləri cənab Rəcəb Tayyib Ərdoğana



Hörmətli cənab Prezident!

Əziz Qardaşım!

Türkiyə Respublikasının aparıcı siyasi qüvvəsi olan Ədalət və İnkişaf Partiyasının Böyük Qurultayının keçirilməsi və Sizin yekdilliklə partiyanın Sədri vəzifəsinə yenidən seçilməyiniz münasibətilə Sizi və rəhbərlik etdiyiniz partiyanın bütün üzvlərini ürəkdən təbrik edirəm. Bu, milli iradənin ifadəsi, Ədalət və İnkişaf Partiyasının üzvlərinin Sizə olan sonsuz inam, etimad və dəstəyinin aşkar təzahürü, qardaş Türkiyənin inkişafı və yüksəlişi naminə göstərdiyiniz xidmətlərə verilən ali qiymətdir.

Ədalət və İnkişaf Partiyasının Böyük Qurultayı Türkiyə Respublikasının ictimai-siyasi həyatında tarixi hadisədir. Əminəm ki, Qurultayda qəbul olunmuş mühüm qərarlar partiyanın gələcək fəaliyyət istiqamətlərinin müəyyənləşdirilməsinə, qardaş xalqınızın rifahı naminə qarşıya qoyulmuş yeni hədəflərə çatmağa, ölkənizin yeni sosial-iqtisadi inkişaf mərhələsini təmin edəcək "Türkiye Yüzyılı" baxışının həyata keçməsinə müstəsna töhfə verəcəkdir.

Qurucusu və rəhbəri olduğunuz Ədalət və İnkişaf Partiyası yarandığı gündən özünün proqram müddəalarına, bəyan etdiyi prinsip və amallara sadiqlik nümayiş etdirərək Türkiyə dövləti və xalqı qarşısında ləyaqətlə və şərəflə xidmət etmiş, hər bir sahədə böyük uğurlara imza atmış, ölkənizin qlobal güc mərkəzinə çevrilməsinə və beynəlxalq aləmdə yüksək nüfuz qazanmasına müvəffəq olmuşdu. Bütün bu nailiyyətlərdə Sizin əvəzsiz rolunuz və misilsiz əməyiniz vardır. Məhz buna görə Sizin adınız Türkiyə dövlətçiliyinin tarixinə əbədi olaraq həkk olunub.

Biz də Sizin müdrik və qətiyyətli rəhbərliyiniz altında Türkiyənin qazandığı uğurlara, onun dünyada artan nüfuzuna sevinir, bundan qürur duyuruq. Böyük fərəh hissi ilə qeyd etmək istəyirəm ki, hazırda Azərbaycan-Türkiyə qardaşlığı, birliyi və strateji müttəfiqliyi nümunəvi xarakter daşıyır və özünün ən yüksək zirvəsindədir. Qarşılıqlı etimad, dəstək və həmrəylik kimi möhkəm təməllər üzərində qurulmuş dövlətlərarası əlaqələrimiz, eyni zamanda regional əməkdaşlığa, sabitliyə və təhlükəsizliyə mühüm töhfə verir.

Əminəm ki, qardaş xalqlarımızın sarsılmaz iradəsindən qaynaqlanan və "Bir millət, iki dövlət" prinsipinə əsaslanan Azərbaycan ilə Türkiyə arasında münasibətlər birgə səylərimizlə bundan sonra da yüksələn xətlə inkişaf etməyə və möhkəmlənməyə davam edəcəkdir.

Bir daha Sizə və Ədalət və İnkişaf Partiyasının hər bir üzvünə ən səmimi təbriklərimi çatdırır, partiyanın işinə bundan sonra da müvəffəqiyyətlər, qardaş Türkiyə dövlətinə və xalqına daim əmin-amanlıq, rifah və firavanlıq arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 oktyabr 2023-cü il*

## Prezident İlham Əliyev Vladimir Putini ad günü münasibətilə təbrik edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 7-də Rusiya Federasiyasının Prezidenti Vladimir Putinə zəng edib.

Dövlətimizin başçısı Vladimir Putini ad günü münasibətilə təbrik edib, ona dövlətçilik fəaliyyətində yeni-yeni uğurlar və möhkəm cansağlığı arzulayıb.

Vladimir Putin göstərilən diqqətə və təbrikə görə Azərbaycan Prezidentinə minnətdarlığını bildirib.

Dövlət başçıları ölkələrimiz arasında dostluq münasibətlərinin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini vurğulayıb, əməkdaşlığın perspektivləri və yeni təmaslar ilə bağlı məsələləri müzakirə ediblər.

***Prezidentin Mətbuat Xidməti***

## İlham ƏLİYEV: "Azərbaycanın atdığı addımlar beynəlxalq hüquqa tam şəkildə uyğundur"



Oktyabrın 7-də Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.

Telefon söhbəti əsnasında regional məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Dövlətimizin başçısı qeyd edib ki, Qranadada Azərbaycanın iştirakı olmadan Azərbaycan adının dördtərəfli bəyanata daxil edilməsi düzgün yanaşma deyil. Prezident İlham Əliyev həmçinin Fransanın məlum mövqeyinə görə Azərbaycanın Qranadadakı görüşdə iştirak etmədiyini bildirib. Dövlətimizin başçısı xüsusilə vurğulayıb ki, Fransanın Ermənistana silah verməsi sülhə deyil, yeni qarşıdurmaya xidmət edən yanaşmadır və əgər regionda hər hansı yeni qarşıdurma baş verərsə, bunun səbəbkarı məhz Fransa olacaq.

Eyni zamanda dövlətimizin başçısı Avropa Parlamenti tərəfindən ksenofob və şovinist yanaşma əsasında qəbul edilmiş anti-Azərbaycan xarakterli bəyanatın, orada səsləndirilən fikirlərin qəbuledilməz olduğunu diqqətə çatdırıb, bunun regionda sülhün və sabitliyin təmin olunmasına xidmət etmədiyini deyib.

Prezident İlham Əliyev bildirib ki, Azərbaycan beynəlxalq hüquqa və BMT-nin Nizamnaməsinə uyğun olaraq, özünümüdafiə hüququndan istifadə edərək suverenliyini tam şəkildə təsbit edib və öz ərazisində mövcud olan qanunsuz hərbi birləşmələrin zərərsizləşdirilməsini təmin edib. Bu baxımdan Azərbaycanın atdığı addımlar beynəlxalq hüquqa tam şəkildə uyğun olub. Dövlətimizin başçısı əlavə edib ki, əksinə, bu məsələni başa düşməyən dövlətlərin özlərinin dünyanın müxtəlif bölgələrində həyata keçirdikləri siyasətlərinə görə beynəlxalq hüquqla ciddi problemləri var.

Prezident İlham Əliyev mərkəzi hökumət tərəfindən Qarabağdan olan erməni sakinlərə humanitar yardımların göstərildiyini və onların qeydiyyatı prosesinin başlandığını bildirib. Azərbaycan Prezidenti vurğulayıb ki, məhz qondarma rejim erməniləri ərazini tərk etməyə və oradan köçməyə məcbur edib.

Prezident İlham Əliyev Azərbaycanın 8 kəndinin hələ də Ermənistanın işğalı altında olduğunu deyərək, bu kəndlərin işğaldan azad olunmasının vacibliyini vurğulayıb.

Dövlətimizin başçısı Azərbaycanla İran arasında regional nəqliyyat dəhlizinin yaradılması istiqamətində işlərin aparıldığını qeyd edib, bu xüsusda Zəngilan rayonunun Ağbənd qəsəbəsi yaxınlığında avtomobil körpüsü və sərhəd-gömrük infrastrukturunun inşası, ərazidə sahilbərkitmə tədbirləri layihələrinin təməlqoyma mərasiminin keçirildiyini deyib.

Şarl Mişel öz növbəsində Avropa İttifaqının Ermənistan-Azərbaycan münasibətlərinin normallaşması istiqamətində səylərini davam etdirməyə hazır olduğunu bildirib.

***Prezidentin Mətbuat Xidməti***

## Avropa Parlamenti ermənilərin və fransızların sifarişlərini icra edir

Avropa Parlamentinin işi Fransanın və erməni lobbisinin sifarişlərini icra etməkdir: "Ermənistanın tələbi ilə ermənilərin könüllü şəkildə ərazilərimizi tərk etməsinə etnik təmizləmə donu geyindirməsi də Avropa Parlamentinin riyakar və ikiüzlü olmasıyla yanaşı, sülh və əmin-amanlığı yox, müharibə və gərginliyi dəstəklədiyini göstərir. Avropa Parlamentində cüzi ədalət hissi olsaydı, vaxtilə öz doğma yurdlarından güc yolu ilə çıxarılan azərbaycanlılara qarşı törədilmiş etnik təmizləmə ilə bağlı uzun illər ərzində heç olmasa bir dəfə səsini çıxarardı. Maraqlıdır, torpaqlarımız işğal olunaraq yaşayış məntəqələrimiz, mədəni irsimiz, dini etiqad yerlərimiz dağıdılaraq Ermənistan tərəfindən təhqir olunanda avropalı parlamentarilər hara baxırdı? Yoxsa, gözləri kor idi, ya onlar müsəlmanları insan hesab etmirlər?!"

→ 4

## Erməni qatillərin ədalət mühakiməsi

### Azərbaycan xalqına qarşı cinayət əməlləri törətmiş canilərin hamısı cavab verəcək

Qondarma rejimin cinayətkar başçısı Arayik Harutyunyan 2020-ci ildə müharibə meydanından kilometrlərlə uzaqda yerləşən Gəncə şəhərini "vur" əmrini vermiş, xeyli sayda mülki insanımızın ölümünə bais olmuşdu. Qatil Arayik bu əməlini qürrələnə-qürrələnə videokamera önündə etiraf etmiş, Azərbaycanın digər böyük şəhərlərinə də zərbə endirəcəklərini həyasızlıqla demişdi.

İstər Xaçatryan, Harutyunyan, Qukasyan, Sahakyan və digərləri olsun, onların hamısı əlləri azərbaycanlıların qanına batmış qatillərdir.

→ 5

## Böyük qələbələrlə tariximizə yazılan səhifələr

44 günlük Vətən müharibəsinə gətirən yolda - ordumuzun 2016-cı ilin Aprelində qazandığı zəfərdə Cəbrayıl rayonunun xüsusi əhəmiyyəti var. Aprel döyüşləri zamanı Azərbaycan Ordusunun əks-hücumu nəticəsində Lələtəpə yüksəkliyi işğaldan azad edildi. Bu, hələ 1994-cü ilin 5 yanvarında aparılmış Horadiz əməliyyatı zamanı düşməndən geri alınmış Cocuq Mərcanlı kəndinin yenidən qurulmasına və sakinlərin ora köçürülməsinə şərait yaratdı.

→ 3

## Erməni faşistləri "demokrat" qiyafəsində

Erməni separatçıları faşizm sevdasında hamıdan irəlidədir. Və hətta Qarabağda qollarına qandal vurulan erməni generallarının həbsi də onlara "demokratiyaya hucum" təsiri bağışlayır. Xatırladaq ki, DTX bu günə qədər Qarabağda 8 nəfər terror başçısını qandallayıb illər boyu həsrətini çəkdikləri şəhərə - Bakıya "çaylamağa" gətirib. Zavallılar 30 il idi ki, bu arzu ilə yaşayırdılar və axır ki istədiklərinə nail oldular. Onların sağ əli çöldə qalan terrorçuların başına...

Sözsüz ki, belə də olacaq. Çünki hadisələrin məntiqi davamı onu göstərir ki, erməni cinayətkarlarının həbsləri davam edəcək, cinayətkarlar mütləq cəzalarını alacaqlar.

→ 6

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 359

QƏRAR

Bakı şəhəri, 6 oktyabr 2023-cü il

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin "İnzibati orqanların Təsnifatı"nın təsdiq edilməsi haqqında" 2007-ci il 28 avqust tarixli 136 nömrəli və "Dövlət orqanlarının aparatının (və ya onların fəaliyyətini təmin edən qurumların) və onun bölmələrinin adlarının təsdiq edilməsi barədə" 2008-ci il 19 dekabr tarixli 277 nömrəli qərarlarında dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin strukturunun və işçilərinin say həddinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 14 may tarixli 2163 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 23 may tarixli 3896 nömrəli Sərəncamının 2.2-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 28 avqust tarixli 136 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 8, maddə 861, № 9, maddə 923, № 10, maddə 1021, № 12, maddə 1331; 2009, № 1, maddələr 22, 32, № 2, maddə 150, № 4, maddələr 282, 293, № 8, maddələr 674, 675, 680, № 10, maddələr 846, 852, 856; 2010, № 2, maddələr 146, 161, № 11, maddə 1040; 2011, № 1, maddə 54, № 5, maddə 447, № 9, maddə 855; 2012, № 5, maddə 475, № 8, maddə 817, № 10, maddə 1028, № 11, maddə 1204, № 12, maddələr 1363, 1388; 2013, № 1, maddə 73, № 8, maddələr 1015, 1038, № 10, maddə 1219; 2014, № 1, maddə 69, № 3, maddə 312, № 6, maddə 736, № 7, maddə 918, № 10, maddə 1308; 2015, № 2, maddə 227, № 5, maddə 612, № 6, maddə 799, № 11, maddə 1413; 2016, № 2 (II kitab), maddə 381, № 4, maddələr 781, 831, № 5, maddə 955, № 7, maddə 1342, № 8, maddələr 1439, 1450, № 9, maddələr 1583, 1585, 1588, № 11, maddə 1976, № 12, maddə 2241; 2017, № 2, maddələr 283, 295, 310, № 5, maddə 972, № 8, maddə 1610, № 10, maddə 1920; 2018, № 2, maddə 335, № 3, maddələr 577, 626, № 7 (II kitab), maddə 1654, № 10, maddələr 2142, 2161; 2019, № 1, maddə 159, № 3, maddələr 529, 563, 565, № 4, maddə 743, № 5, maddələr 944, 972, № 12, maddələr 2064, 2068; 2020, № 2, maddə 204, № 5, maddə 652, № 7, maddə 1005, № 10, maddə 1311, № 11, maddə 1413; 2021, № 2, maddə 203, № 3, maddə 280, № 8, maddə 965, № 11, maddə 1280; 2022, № 4, maddələr 375, 379, 384, 412, № 6, maddə 686, № 7, maddə 810, № 8, maddələr 974, 1024, № 12, maddə 1552; 2023, № 1, maddə 139, № 4, maddə 583; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 20 aprel tarixli 129 nömrəli və 21 iyul tarixli 236 nömrəli qərarları) ilə təsdiq edilmiş "İnzibati orqanların Təsnifatı"nın 38.1.1-1-ci yarımbəndində "Regional idarələri" sözləri "Naxçıvan regional miqrasiya baş idarəsi" sözləri ilə əvəz edilsin və aşağıdakı məzmunda 38.1.1-2-ci yarımbənd əlavə edilsin:

"38.1.1-2. Regional miqrasiya idarələri".

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 19 dekabr tarixli 277 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 12, maddə 1115; 2009, № 2, maddə 153, № 4, maddə 282, № 7, maddələr 605, 610, № 8, maddələr 674, 680, № 10, maddələr 846, 852, 856; 2010, № 1, maddə 60, № 2, maddələr 146, 161, № 10, maddələr 906, 912, № 11, maddə 1040; 2011, № 1, maddə 66, № 5, maddə 446, № 9, maddələr 856, 862; 2012, № 5, maddə 479, № 8, maddə 818, № 10, maddə 1027, № 11, maddə 1205; 2013, № 1, maddə 74, № 8, maddələr 1014, 1037; 2014, № 1, maddə 69, № 3, maddə 313, № 6, maddə 736, № 7, maddə 919, № 10, maddə 1308; 2015, № 2, maddə 227, № 5, maddə 611, № 6, maddə 800, № 11, maddə 1414; 2016, № 1, maddə 171, № 2 (II kitab), maddə 382, № 3, maddə 608, № 4, maddələr 782, 831, № 5, maddə 955, № 7, maddə 1343, № 8, maddələr 1440, 1450, № 9, maddələr 1584, 1585, 1587, № 11, maddə 1976, № 12, maddə 2241; 2017, № 2, maddələr 282, 296, 311, № 5, maddə 972, № 8, maddə 1611, № 10, maddələr 1921, 1922, № 11, maddə 2186; 2018, № 2, maddə 336, № 3, maddələr 578, 625, 631, № 7 (II kitab), maddə 1655, № 10, maddələr 2142, 2161; 2019, № 1, maddə 160, № 3, maddələr 529, 563, 565, № 4, maddə 743, № 5, maddələr 944, 972, № 12, maddələr 2064, 2068, 2106; 2020, № 2, maddə 204, № 5, maddə 652, № 10, maddə 1306, № 11, maddə 1413; 2021, № 2, maddə 203, № 3, maddə 276, № 4, maddə 420, № 6 (IV kitab), maddə 695, № 11, maddə 1280, № 12, maddə 1508; 2022, № 4, maddələr 375, 379, 384, 412, № 5, maddə 577, № 6, maddə 686, № 7, maddə 811, № 8, maddə 1023, № 9, maddə 1083, № 12, maddə 1552; 2023, № 1, maddə 139, № 4, maddə 583; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 20 aprel tarixli 129 nömrəli, 21 iyul tarixli 236 nömrəli, 3 avqust tarixli 261 nömrəli və 30 avqust tarixli 294 nömrəli qərarları) ilə təsdiq edilmiş "Dövlət orqanlarının aparatının (və ya onların fəaliyyətini təmin edən qurumların) və onun bölmələrinin adları"nın "Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin tabeliyində olan: "hissəsində "Bakı Şəhər Regional Miqrasiya Baş İdarəsi" sətrindən sonra "Naxçıvan regional miqrasiya baş idarəsi" sətri əlavə edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Əhalinin nominal gəlirləri 14,3 faiz artıb

## Neft-qaz sektorunda orta aylıq əməkhaqqı daha yüksəkdir

**Ölkənin iqtisadi inkişafı əhalinin rifahının yaxşılaşmasında önəmli rol oynayır. Çox sadə bir səbəbdən: geniş maliyyə imkanlarına malik dövlət əhalinin sosial müdafiəsini təmin etməkdə çətinlik çəkmir. Azərbaycanda da son illər sosial sahədə ciddi addımların atılması bununla bağlıdır.**

Son 20 ildə ölkəmiz uğurlu inkişaf yolu keçib. Prezident İlham Əliyevin apardığı məqsədyönlü iqtisadi siyasət sayəsində bu dövrdə ümumi daxili məhsul istehsalı 4 dəfə, büdcə gəlirlərimiz 30, xarici ticarət dövriyyəsi 10 dəfədən çox artıb. Sosial sahəyə gəldikdə, həmin istiqamətdə aparılan düşünülmüş siyasət sayəsində ölkədə yoxsulluğun səviyyəsi 5,5 faizə düşüb ki, bu da dünya üzrə məqbul göstərici sayılır.

Yoxsulluğun səviyyəsinin aşağı düşməsinin bir səbəbi də ölkədə məşğulluq səviyyəsinin yüksəlməsi ilə bağlıdır. Son 5 ildə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin müvafiq orqanları tərəfindən məşğulluq üzrə 1 milyondan çox şəxslə müxtəlif istiqamətlərdə işlər aparılıb, məşğulluq xidmətləri sahəsində innovativ həllər tətbiq olunub, rəqəmsallaşdırma, peşə hazırlığı sistemi təkmilləşdirilərək şəbəkəsi genişləndirilib və s.

Əhalinin məşğulluğunun təmin edilməsi üçün görülən tədbirlər sayəsində ölkədə hər il yeni iş yerləri açılır. Bu sahədə özəl sektor daha aktiv rol oynayır. Dövlət Statistika Komitəsinin məlumatına görə, təkcə cari ilin 6 ayı ərzində ölkə üzrə 38,9 min yeni iş yeri açılmışdır ki, onun da 93,4 faizi qeyri-dövlət sektoruna məxsusdur. Bu dövr yaradılan yeni iş yerlərinin 9,1 faizi yeni, 90,1 faizi mövcud, 0,5 faizi fəaliyyətini bərpa etmiş müəssisə və təşkilatların payına düşür.

Həmişə olduğu kimi, ən çox yeni iş yerlərinin açılması Bakı şəhərində qeydə alınıb - 81,9 faiz. Regionlarda isə iş yerləri daha çox Abşeron-Xızı, Quba-Xaçmaz, Gəncə-Daşkəsən, Mərkəzi Aran iqtisadi rayonlarında açılıb.

Dövlət Statistika Komitəsinin açıqladığı məlumata görə, sentyabrın 1-i vəziyyətinə ilkin məlumatlara əsasən, ölkədə iqtisadi fəal əhalinin sayı 5 milyon 237,5 min nəfər olmuşdur. Onlardan 4 milyon 948,9 min nəfərini məşğul əhali təşkil etmişdir.

Cari il avqustun 1-i vəziyyətinə muzdla çalışanların sayı 1 milyon 706,5 min, o cümlədən iqtisadiyyatın dövlət sektorunda 891,7 min, qeyri-dövlət sektorunda 814,8 min nəfər olmuşdur. O cümlədən iqtisadiyyatın neft-qaz sektorunda 31,6 min, qeyri neft-qaz sektorunda isə 1 milyon 674,9 min nəfər çalışmışdır. Müəssisə və təşkilatlarda muzdla çalışanların 22,7 faizi məhsul istehsalı sahələrində fəaliyyət göstərmiş, xidmət sahəsində işləyənlərin 19 faizi isə təhsil sahəsində çalışmışdır.

DSK-nın məlumatından o da məlum olur ki, cari ilin yanvar-iyul aylarında ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı ötən ilin müvafiq dövrü ilə müqayisədə 11,3 faiz artaraq 925,3 manata çatmışdır. Əməkhaqqı neft-qaz sektorunda 3571,2, qeyri neft-qaz sektorunda 874,7 manat olmuşdur. Hesabat dövrü dövlət müəssisələrində çalışan işçilərin əməkhaqları 889,3, özəl müəssisələrdə 964,9 manat təşkil etmişdir. Əhalinin məşğulluğu onların gəlirlərinin artmasına da müsbət təsir göstərmişdir. Bu ilin yanvar-avqust aylarında ölkə əhalisinin nominal gəlirləri əvvəlki ilin eyni dövrü ilə müqayisədə 14,3 faiz artmış və hər nəfərə orta hesabla 5013,3 manat düşmüşdür.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

# Azərbaycan ilə Serbiya arasında əməkdaşlıq gündəliyində duran aktual məsələlər müzakirə olunub

**Oktyabrın 6-da Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Serbiya Respublikasının Milli Assambleyasının sədri Vladimir Orliç ilə görüşüb.**



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, görüşdə Azərbaycan ilə Serbiya arasında əməkdaşlıq gündəliyində duran aktual məsələlər, habelə regionda mövcud vəziyyət müzakirə olunub.

Nazir Ceyhun Bayramov Azərbaycan ilə Serbiya arasında müxtəlif sahələr üzrə ikitərəfli, o cümlədən çoxtərəfli əməkdaşlıq gündəliyinin inkişafında qarşılıqlı təmasların və səfərlərin, xüsusilə iki ölkənin liderləri arasında mövcud siyasi dialoqun əhəmiyyətini məmnunluqla qeyd edib. Serbiyanın keçmiş Ermənistan-Azərbaycan münaqişəsində, habelə postmünaqişə dövründə hər zaman ölkəmizin suverenliyi və ərazi bütövlüyünü tam dəstəklədiyini xatırlayan nazir Ceyhun Bayramov beynəlxalq hüququn bu vacib prinsiplərinə münasibətdə ikili standartların tətbiqinin qəbuledilməz olduğunu vurğulayıb.

Qarşı tərəf postmünaqişə dövründə bölgədə mövcud vəziyyət, Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşması və sülh prosesi, habelə Qarabağ bölgəsində yaşayan erməni sakinlərin reinteqrasiyası istiqamətində göstərilən səylər barədə ətraflı məlumatlandırılıb.

Ərazilərimizdə işğal dövründən qalma, beynəlxalq hüquqa zidd olaraq mövcudluğunu davam etdirən erməni silahlı qüvvələrinin növbəti təxribatlarına cavab olaraq başlayan antiterror tədbirlərindən bəhs edən nazir Ceyhun Bayramov həyata keçirilən bu tədbirlər nəticəsində Qarabağ bölgəsində mövcud qanunsuz hərbiləşmənin miqyasının bir daha hər kəs üçün aydın olduğunu diqqətə çatdırıb. Bölgədə sülh və təhlükəsizliyə hədə olan bu real təhdidin aradan qaldırılmasına baxmayaraq, bu gün bir sıra ölkələrin müxtəlif vasitələrlə öz daxili siyasi gündəliklərini regiona proyeksiya etmək üçün olduqca təhlükəli addımlar atdığını qeyd edib.

Mövcud çağırışlara baxmayaraq, ölkəmizin bu kimi cəhdlərin qarşısının alınması, habelə sülh və reinteqrasiya prosesinin irəlilədilməsi əzmində olduğu bildirilib.

Milli Assambleyanın sədri Vladimir Orliç Azərbaycan səfərindən, habelə səfər çərçivəsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən qəbul edilməsindən məmnunluq duyduğunu deyib. Eyni zamanda bu kimi səfərlərin ölkələrimiz arasında mövcud dostluq münasibətlərinin müxtəlif səviyyələrdə, o cümlədən parlamentlərarası səviyyədə inkişafına töhfə verəcəyinə dair inamını ifadə edib. Bölgədəki vəziyyət və mənzərənin əslində tam aydın olmasına baxmayaraq, beynəlxalq hüquqa və mövcud reallıqlara zidd olaraq, bir sıra ölkələr tərəfindən ortaya qoyulan ziddiyyətli mövqelərin təəssüf doğurduğu diqqətə çatdırılıb.

Görüş zamanı, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Azərbaycan və Qətərin Xarici İşlər nazirlikləri arasında siyasi məsləhətləşmələr baş tutub

**Oktyabrın 6-da Bakı şəhərində Azərbaycan Respublikası ilə Qətər Dövlətinin Xarici İşlər nazirlikləri arasında siyasi məsləhətləşmələrin növbəti raundu keçirilib.**



Bu barədə AZƏRTAC-a Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən məlumat verilib.

Siyasi məsləhətləşmələrə Azərbaycan tərəfindən xarici işlər nazirinin müavini Yalçın Rəfiyev, Qətər Dövləti tərəfindən xarici işlər üzrə dövlət naziri Soltan bin Saad Al-Mureyxi rəhbərlik edib.

Məsləhətləşmələr zamanı siyasi, iqtisadi, enerji, humanitar, parlamentlərarası əlaqələr sahələri üzrə ikitərəfli əməkdaşlığın hazırkı vəziyyəti və perspektivləri, beynəlxalq təşkilatlar, o cümlədən BMT, İslam Əməkdaşlığı Təşkilatı və Qoşulma Hərəkatı çərçivəsində əməkdaşlıq məsələləri müzakirə olunub.

Tərəflər, həmçinin qarşılıqlı maraq doğuran regional və qlobal xarakterli məsələlərə dair fikir mübadiləsi aparıblar.

Qətər Dövləti tərəfinə bölgədə münaqişə sonrası mövcud olan vəziyyət, o cümlədən azad edilmiş ərazilərdə aparılan bərpa, quruculuq, reinteqrasiya işləri barədə məlumat verilib.

# Azərbaycan-İsrail parlamentlərarası əlaqələr üzrə işçi qrupu İsrailə qarşı genişmiqyaslı hücumları pisləyib

**Milli Məclisin Azərbaycan-İsrail parlamentlərarası əlaqələr üzrə işçi qrupu İsrailə qarşı genişmiqyaslı hücumlar ilə bağlı bəyanat yayıb.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, bəyanatda Qəzza sektorunun ərazisindən İsrailə qarşı baş vermiş, mülki obyektləri, yaşayış məntəqələrini və şəxsləri qəsdən hədəf alan raket zərbələri ilə müşayiət edilən hücumlar qətiyyətlə pislənilib.

Azərbaycan-İsrail parlamentlərarası əlaqələr üzrə işçi qrupu bu amansız hücumlarda həyatlarını itirmiş şəxslərin ailələrinə və yaxınlarına başsağlığı verir, yaralananlara isə şəfa diləyir.

Qeyd olunub ki, bu çətin zamanda İsrail xalqının yanındayıq.

***"Azərbaycan"***

# Azərbaycan qardaş Səudiyyə Ərəbistanının 2034-cü ildə futbol üzrə dünya çempionatına evsahibliyi etmək təşəbbüsünü dəstəkləyir

**Azərbaycan Səudiyyə Ərəbistanının 2034-cü ildə futbol üzrə dünya çempionatına evsahibliyi etmək təşəbbüsünü dəstəkləyir.**

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin "X" səhifəsindəki paylaşımında qeyd olunub.

Paylaşımda bildirilib: "İnanırıq ki, çempionat Səudiyyə Ərəbistanında dünya səviyyəli turnir olacaq. Çünki bu dost ölkə çoxsaylı turnirlərə evsahibliyi edib və futbola köklü həvəsi var".

Xatırladaq ki, oktyabrın 4-də Səudiyyə Ərəbistanı Futbol Federasiyası 2034-cü ildə keçiriləcək futbol üzrə dünya çempionatına evsahibliyi etmək üçün təklif verəcəyini açıqlayıb.




# Naftalanda keçirilən Beynəlxalq elmi-praktik konfransın ilk günü uğurla yekunlaşıb

**Oktyabrın 7-də Naftalanda "Naftalan - Sağlamlıq və Turizmin Sinerji Mənbəyi. Beynəlxalq Turizm Mərkəzinin İnkişaf Strategiyası" mövzusunda Beynəlxalq elmi-praktik konfrans işə başlayıb.**

Naftalanda Beynəlxalq elmi-praktik konfransın keçirilməsində əsas məqsəd tibbi turizm sahəsində qabaqcıl təcrübələrin və bu sahədə aparılmış elmi tədqiqatların nəticələrinin öyrənilməsi, turizm sənayesində maraqlı tərəflər arasında qarşılıqlı əlaqələrin qurulması, mədəni mübadiləni aktivləşdirmək üçün turizmin inkişafını təşviq etmək və tibbi turizm sektorunun inkişaf perspektivlərini müəyyənləşdirməkdən ibarət olub.

AZƏRTAC xəbər verir ki, konfransda Azərbaycan, Türkiyə, Latviya, Litva, Qazaxıstan, Özbəkistan respublikalarının, Almaniya Federativ Respublikasının, Rusiya Federasiyasının turizm, səhiyyə, sanator-kurort sahələrinin mütəxəssisləri və dövlət-hakimiyyət orqanlarının nümayəndələri iştirak ediblər.





Konfransın ilk günü iştirakçılar tərəfindən Heydər Əliyev parkının ərazisində Ulu Öndərin 100 illik yubileyi ilə əlaqədar ağacəkmə aksiyası keçirilib.

Sonra iştirakçılar dünyada müalicəvi xüsusiyyətlərinə görə unikal Naftalan nefti ilə yaxından tanış olublar.

Konfrans çərçivəsində iştirakçılar şəhərin Qaşaltı Qaraqoyunlu kəndi ərazisində Eneolit, Tunc və Orta əsrlər dövrünə aid unikal çoxtəbəqəli yaşayış yerində aparılan arxeoloji qazıntı işləri ilə tanış olublar, qazıntılar zamanı aşkar edilmiş eksponatlar nümayiş etdirilib. Bu da Naftalanda alternativ turizm imkanlarının yaradılmasına öz töhfəsini verəcək.

Daha sonra kənd ərazisindəki Nar bağına səfər edilib, qonaqlara kəndin turizm potensialı haqqında ətraflı məlumat verilib.

Konfrans iştirakçıları Qarabağ İqtisadi rayonuna daxil olan işğaldan azad olunmuş Talış kəndinə və Suqovuşan qəsəbəsinə səfər edərək, oranın turizm potensialı və ərazidə yenidənqurma və bərpa işləri ilə tanış olub, qəsəbədə şəhidlərin xatirəsinə ucaldılmış abidə kompleksini ziyarət edib, önünə gül dəstələri düzərək ehtiramlarını bildiriblər.

Bildirilib ki, Prezident İlham Əliyevin diqqət və qayğısı nəticəsində Naftalanda sağlamlıq turizmi potensialının inkişaf etdirilməsi istiqamətində irimiqyaslı işlər aparılıb. Naftalan-Talış-Suqovuşan istiqamətində mövcud yol infrastrukturunun istismara verilməsi region turizminin inkişafında mühüm əhəmiyyət kəsb edib.

Konfrans işini plenar iclası və panel müzakirələrlə oktyabrın 8-də davam etdirəcək.

# YAP nümayəndə heyəti AK Partinin IV Fövqəladə Böyük Qurultayında iştirak edib






**Oktyabrın 7-də Türkiyənin paytaxtı Ankarada Prezident Rəcəb Tayyib Ərdoğanın sədrliyi ilə hakim Ədalət və İnkişaf Partiyasının (AK Parti) IV Fövqəladə Böyük Qurultayı keçirilib.**

"Türkiyə yüz ili üçün hər zaman yeni, hər zaman irəli" şüarı ilə keçirilən qurultayda 27 ölkənin siyasi partiyalarının nümayəndələri, bir sıra dövlət və hökumət rəhbərləri, diplomatlar, vətəndaş cəmiyyəti təmsilçiləri iştirak ediblər.

Qurultayda Azərbaycanı Yeni Azərbaycan Partiyası Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun rəhbərlik etdiyi nümayəndə heyəti təmsil edib.

Prezident Rəcəb Tayyib Ərdoğan çıxışı zamanı Türkiyə xalqının rifahının yüksəldilməsi, iqtisadi inkişafın təmin olunması, terrorizmə qarşı mübarizə kimi məsələlərə diqqəti yönəldib, verilən bütün vədlərin yerinə yetiriləcəyini vurğulayıb. O, qardaş ölkənin qazandığı nailiyyətlərdən, "Türkiyə yüz ili" proqramı çərçivəsində qarşıda duran hədəflərdən, istər daxili, istərsə də xarici siyasət sahəsində reallaşdırılması nəzərdə tutulan planlardan ətraflı bəhs edib və perspektivə dair önəmli mesajlar verib. Qurultayın həm Türkiyə Respublikası, həm də AK Parti üçün faydalı olacağını əminliklə ifadə edən dövlət başçısı 2024-cü ilin mart ayında keçiriləcək bələdiyyə seçkilərinin əhəmiyyətinə toxunub, referendum vasitəsilə konstitusiya dəyişikliyinin zəruriliyini nəzərə çatdırıb.

Prezident Rəcəb Tayyib Ərdoğan yenidən yekdilliklə Ədalət və İnkişaf Partiyasının Sədri seçilib. Səsvermə nəticəsində partiyanın 75 nəfərdən ibarət Mərkəzi Qərar və İdarə Heyəti də müəyyənləşib.

Qurultayda iştirak edən xarici qonaqların şərəfinə Türkiyə Respublikasının vitse-prezidenti Cevdet Yılmazın adından Prezident sarayında rəsmi ziyafət verilib.

# Türkiyə Respublikasının vitse-prezidenti YAP nümayəndə heyətini qəbul edib




**Türkiyə Respublikasının vitse-prezidenti Cevdet Yılmaz qardaş ölkədə səfərdə olan Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.**

Nümayəndə heyətini salamlayan Cevdet Yılmaz iki dost və qardaş ölkə olan Azərbaycan ilə Türkiyə arasındakı münasibətlərin uğurla inkişaf etdiyini söyləyib.

Vitse-prezident qeyd edib ki, nümunəvi xarakter daşıyan Türkiyə-Azərbaycan işbirliyi regional və beynəlxalq əhəmiyyətə malikdir. C.Yılmaz vurğulayıb ki, iki ölkənin münasibətləri xalqlarımızın birliyini ifadə edən möhkəm təməl üzərində qurulub və dostluğumuz, qardaşlığımız əbədidir. O qeyd edib ki, Türkiyə və Azərbaycan beynəlxalq platformalarda bir-birini fəal şəkildə dəstəkləyir.

44 günlük Vətən müharibəsində qazanılmış möhtəşəm Qələbənin xalqlarımızın qürur mənbəyi olduğunu nəzərə çatdıran Cevdet Yılmaz Azərbaycanın suverenliyinin tam bərpa olunması münasibətilə təbriklərini çatdırıb. Vitse-prezident hər iki ölkənin beynəlxalq münasibətlər sistemində layiqli yer tutduğunu və öz mövqelərini möhkəmləndirdiyini, dövlət başçılarının iradələri əsasında ikitərəfli münasibətlərin keyfiyyətcə yeni mərhələyə yüksəldiyini bildirib.

Səmimi qəbula görə minnətdarlığını bildirən YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov iki ölkənin liderləri - Prezident İlham Əliyev və Prezident Rəcəb Tayyib Ərdoğanın məqsədyönlü siyasətləri nəticəsində Azərbaycan-Türkiyə münasibətlərinin ən yüksək səviyyədə olduğunu, dövlətçilik maraqlarımızın məharətlə təmin edildiyini vurğulayıb. 44 günlük Vətən müharibəsində Azərbaycana böyük mənəvi-siyasi dəstək göstərən qardaş Türkiyənin yeni reallıqlar fonunda da ölkəmizin haqlı mövqeyini müdafiə etməsinin dostluq və qardaşlıq örnəyi olduğunu söyləyib.

İki qardaş ölkənin daim bir-birinin yanında olduğunu bildirən YAP Sədrinin müavini "Bu gün iftixarla qeyd edirik ki, sözümüz və əməlimiz birdir. Dəfələrlə sübuta yetirmişik ki, biz birlikdə güclüyük və bundan sonra da möhtəşəm uğurlara imza atmaq əzmindəyik",- deyə qeyd edib.

Son 20 ildə reallaşdırılmış möhtəşəm layihələr və qazanılmış uğurlar nəticəsində Türkiyənin gücünün kifayət qədər artdığını bildirən YAP Mərkəzi Aparatının rəhbəri, Rəcəb Tayyib Ərdoğanın başçılığı ilə qardaş ölkənin milli inkişafa hədəflənən bütün planlarının reallaşdırılacağına inamını ifadə edib.

Tahir Budaqov iki ölkənin hakim partiyaları arasında münasibətlərin yüksələn xətt üzrə inkişaf etdiyini də diqqətə çatdırıb.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər barədə müzakirələr aparılıb.

Qeyd edək ki, YAP Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun rəhbərlik etdiyi nümayəndə heyətinin tərkibinə millət vəkilləri - YAP İdarə Heyətinin üzvü Pərvin Kərimzadə, YAP Təftiş Komissiyasının sədri Sevinc Hüseynova, YAP ilə AK Parti arasında əlaqələndirici Ramil Həsən və YAP Mərkəzi Aparatının İnformasiya texnologiyaları və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Nurlan Qələndərov daxildir.

# Böyük qələbələrlə tariximizə yazılan səhifələr

**Azərbaycan tarixinin ən mühüm hadisələrindən olan 44 günlük Vətən müharibəsinin hər günü unudulmaz salnamədir. Bu 44 gün tarixi taleyimizi dəyişdi, təkcə ölkəmizin deyil, ümumilikdə regionumuzun həyatında yeni bir səhifə açdı. Müzəffər Ali Baş Komandan İlham Əliyev şanlı ordumuzun Qələbəsi ilə bölgəmizdə parlaq gələcəyin təməlini qoydu. Bu, şəhidlərimizin qanı, Vətənin hər qarışı uğrunda canından keçməyə hazır olan igidlərimizin misilsiz fədakarlığı hesabına qazanılmış zəfərdir. İndiki və gələcək nəsillər belə bir fədakarlığı heç zaman unutmayacaq, aradan keçən illər Qələbəmizin tarixi dəyərini hər il daha da yüksəldəcək.**



## Mürəkkəb əməliyyat

2020-ci ilin oktyabr ayı 44 günlük Zəfər salnaməsində xüsusi yer tutdu. Həmin ayın 4-də Vətən müharibəsinin ilk həlledici qələbələrindən biri qazanıldı, Cəbrayıl şəhəri düşməndən azad edildi. 27 sentyabr 2020-ci ildə erməni silahlı birləşmələrinin növbəti təxribatına qarşı hərbi əməliyyatlar başlanan vaxt Cəbrayıl rayonunun Böyük Mərcanlı və Nüzgar kəndləri düşməndən təmizləndi. 3 oktyabr tarixində rayonun Mehdili, Çaxırlı, Aşağı Maralyan, Şəybəy və Quycaq kəndləri də 27 ildən sonra azadlığa qovuşdu. 4 oktyabr tarixində isə xalqımıza Cəbrayıl şəhəri və rayonun 9 kəndinin - Karxulu, Şükürbəyli, Çərəkən, Daşkəsən, Horovlu, Mahmudlu, Cəfərabad, Yuxarı Maralyan və Decal kəndlərinin işğaldan azad edilməsinin müjdəsi verildi.

İşğal altındakı şəhərlərimizdən birinin azadlığa çıxmasının hərbi, tarixi-mənəvi əhəmiyyəti ilə yanaşı, mühüm sosial-psixoloji təsiri də vardı. Təxminən 30 illik dövrdə işğal faktı, bu faktın sıxıntıları, ağrı-acıları bizim üçün düşmən tapdağındakı rayonlarımızın, o cümlədən Cəbrayılın adı ilə assosiasiya olunmuşdu. 4 oktyabr 2020-ci ildə Cəbrayılın azad edilməsi ilə cəmiyyətimizdəki ruh yüksəkliyi, tezliklə bu haqq savaşımızdakı qəti qələbəmizə inam daha da artdı.

Cəbrayıl əməliyyatı Vətən müharibəsinin ən mürəkkəb əməliyyatlarından idi. Çünki erməni işğalçıları bu ərazidə möhkəmlənməkdən ötrü uzun illər bir neçə xətdən ibarət istehkamlar yaratmışdılar. Obrazlı desək, özlərinə gizli yuvalar qurmuşdular. Həmin istehkamları yarmaq çox böyük fədakarlıq tələb edirdi. Amma Azərbaycan Ordusunun gücü, əsgər və zabitlərimizin döyüş ruhu qarşısında heç bir istehkam tab gətirmədi. Hərbçilərimiz Ali Baş Komandanın əmrini rəşadətlə yerinə yetirərək qısa zamanda Cəbrayıl şəhərinin azadlığına nail oldular. Cəbrayıl əməliyyatının uğuru digər rayonlara parlaq əks-hücumlarımızı da mümkün etdi. Cəbrayılın düşməndən təmizlənməsi ordumuzun Xocavənd rayonunun cənub kəndləri və strateji Hadrut qəsəbəsi istiqamətində hərbi əməliyyatlar keçirməsinə şərait yaratdı. Əməliyyatların sonrakı gedişində düşmən Zəngilan rayonundan, ardınca Qubadlı və Laçın rayonunun cənub hissəsindən də qovuldu və Laçın dəhlizi Azərbaycanın nəzarətinə götürüldü.

## Xudafərində dalğalanan bayrağımız

Cəbrayıl rayonundakı tarixi Xudafərin körpüsünün azad edilməsi, burada dövlət bayrağımızın dalğalanması da mühüm mənəvi dəyəri ilə cəmiyyətimizdə böyük coşqu yaratdı.

Xudafərin körpüsü bizim üçün həsrət körpüsü idi. Uzun illər ərzində bu körpünün şəkillərinə qubarla baxardıq. Bu tarixi məkanın bizim üçün əlçatmazlığına üzülərdik. Əcdadlarımızın uzaq yollarını yaxın edən, doğma elləri bir-birinə qovuşduran, möhtəşəm bir tarixin şahidi olan bu körpülərin düşmən əlində əsir qalması qəlbimizə çarpaz dağ idi. Müzəffər Ali Baş Komandan İlham Əliyev bu həsrətimizə son qoydu. Xudafərin körpüsündə Azərbaycanın dövlət bayrağını ucaldaraq böyük bir tarixi uğura imza atdı.

44 günlük Vətən müharibəsinə gətirən yolda - ordumuzun 2016-cı ilin aprelində qazandığı zəfərdə Cəbrayıl rayonunun xüsusi əhəmiyyəti var. Aprel döyüşləri zamanı Azərbaycan Ordusunun əks hücumu nəticəsində Lələtəpə yüksəkliyi işğaldan azad edildi. Bu, hələ 1994-cü ilin 5 yanvarında aparılmış Horadiz əməliyyatı zamanı düşməndən geri alınmış Cocuq Mərcanlı kəndinin yenidən qurulmasına və sakinlərin ora köçürülməsinə şərait yaratdı. Çünki Lələtəpə strateji yüksəklik olduğundan və Aprel qələbəsinə qədər orada düşmən qərarlaşdığından kənddə mülki azərbaycanlı sakinlərin kütləvi məskunlaşması mümkün deyildi. Ordumuzun Aprel qələbəsindən sonra Cocuq Mərcanlı qısa zaman içində yenidən quruldu. Sakinlərin doğma kəndlərinə qayıdışı ilə Qarabağa Böyük qayıdışın əsası qoyuldu. Azərbaycan Ordusunun bu qələbəsi uzun illər ərzində öz ordusu haqqında yalançı miflər uydurmuş Ermənistan cəmiyyətinə də böyük bir zərbə oldu. Bunun təsiri işğalçı ölkədə hətta hakimiyyət dəyişikliyinə qədər gətirib çıxardı.

## Erməni vandalizminin Cəbrayıl üzü

Bu gün Qarabağda, Şərqi Zəngəzurda aparılan bərpa-quruculuq prosesləri çərçivəsində Cəbrayıl da yenidən qurulur. Təxminən 30 illik işğal dövründə erməni vandallarının yerlə-yeksan etdikləri doğma şəhərimiz həyata qaytarılır. 1993-cü ilin 23 avqustunda Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilərkən Cəbrayıl Azərbaycanın abad rayonlarından idi. Rayonda 1 şəhər, 4 qəsəbə, 92 kənd vardı. Hesablamalara görə, ermənilər ərazini işğal etməklə Cəbrayıl rayonuna 13,928 milyard ABŞ dolları məbləğində ziyan vurublar. 1050 kv km-i əhatə edən, 52000 nəfər əhalisi olan rayon ərazisi və bu ərazidəki 72 ümumtəhsil məktəbi, 8 xəstəxana, 132 tarixi abidə, 150 mədəniyyət ocağı, 100-ə yaxın kənd vəhşicəsinə dağıdılıb.

1992-1993-cü illərdə düşmənin əlinə keçən başqa rayonlarımız kimi, Cəbrayılın işğalı da Ulu Öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışına qədər ölkənin taleyinə görə məsuliyyət daşıyan təsadüfi insanların yol verdikləri yanlışlıqların, ölkədə yaranmış böhranın nəticəsi idi. İgid Azərbaycan övladları rayon və şəhərlərimizi qorumaq üçün səngərlərdə canlarından keçirdilər. Mərkəzdə isə hakimiyyət davası gedirdi. AXC-Müsavat cütlüyünün vəzifə hərisi olan naşı təmsilçiləri, siyasi mübarizəni küçələrdə silahla aparan kriminal qruplar ölkəni fəlakətə sürükləyirdilər. Azərbaycan oğullarının qarış-qarış qoruduqları torpaqlar hakimiyyət boşluğundan rayon-rayon, şəhər-şəhər, kənd-kənd düşmənə təslim olurdu. Birinci Qarabağ müharibəsində təkcə Cəbrayıl rayonu 362 şəhid vermişdi. 191 nəfər sağlamlığını itirərək əlil olmuş, 6 nəfər rayon sakini Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülmüşdü. Bu insanların fədakarlığı Cəbrayılı qorumağa yetmədi. Düşmən havadarlarının köməyi ilə Cəbrayılı işğal etdi və 27 illik işğal ərzində Azərbaycanın qurulu bir rayonunu, demək olar ki, dağıtdı, tanınmaz hala saldı.

İşğaldan əvvəl rayonun əhalisi əsasən üzümçülük, heyvandarlıq, taxılçılıq, baramaçılıqla məşğul olurdu. Cəbrayıl Azərbaycanda elmin, mədəniyyətin, maarifin ən yüksək inkişaf səviyyəsinə çatdığı məkanlardan idi. Rayonda 510 çarpayılıq xəstəxanalar vardı. Bu xəstəxanalarda ümumən 92 həkim, 432 orta ixtisaslı tibb işçisi çalışırdı. Rayonun 72 məktəbi vardı. Bu məktəblərdə 1660 nəfərdən çox müəllim gənc nəslin təlim-tərbiyəsi ilə məşğul olurdu. Cəbrayılda 3 musiqi məktəbi, 12 mədəniyyət evi, 32 klub, 10 mədəni çadır və avtoklub, 78 kitabxana, 1 muzey fəaliyyət göstərirdi. Rayonda 8 sənaye müəssisəsi, 42 kolxoz, iri və xırdabuynuzlu malqaranın kökəltmə birliyi, quşçuluq fabriki mövcud idi. Erməni vandalları bütün bu qurulu infrastrukturu məhv etdilər. Cəbrayıl rayonundan olan məcburi köçkünlər respublikanın 58 rayonunun 2000-dək yaşayış məntəqəsində, o cümlədən qaçqın düşərgələrində, yük vaqonlarında və yataqxanalarda məskunlaşdılar. Xüsusilə işğalın ilk illərində min bir zillət yaşadılar.

Azərbaycanlıların bu torpaqlardakı izini silməkdən ötrü ermənilər hətta Cəbrayıldakı tarixi abidələrimizi də dağıtdılar. Rayonun Dağ Tumas kəndi yaxınlığındakı "Divlər Sarayı" mağarasının, Qalacıq kəndindəki "Məscid Təpəsi", "Canqulu" və "Qumtəpə" kurqanlarının, Diri dağındakı Mazannənə, Mərmərnənə məqbərələrinin, Dağ Tumas kəndindəki "Başıkəsik Günbəz"in, Sirik kəndindəki "Qala", Diri dağındakı "Qız qalası", Xudafərin körpülərinin, Çələbilər kəndindəki Məscid kompleksinin, rayon mərkəzindəki "Sultan Məcid hamamı"nın, Şıxlar kəndindəki "Dairəvi Türbə"nin, Xubyarlı kəndindəki "Dairəvi" 8 guşəli türbələrin və məqbərələrin, türk qəbiristanlığındakı türbə və məqbərələrin hər birinin işğal zamanı dağıntılara məruz qalması erməni vandalizminin nə qədər qorxunc olduğunu, heç bir əndazə tanımadığını göstərir.

## Yeni həyatın başlanğıcı

Bütün bunlar artıq keçmişdir - hər zaman xatırlayıb, necə bir tayfa ilə qonşuluqda yaşadığımızı heç zaman unutmamalı olduğumuz keçmişdir. Cəbrayıl isə özünün yeni həyatına daxil olur. Xüsusilə Araz Vadisi İqtisadi Zonasının yaradılması Cəbrayıl rayonunun inkişafı üçün çox mühüm addımdır. Artıq rayonun elektrik təchizatı təmin edilib. Rayona 4-6 zolaqlı yol çəkilməkdədir. Bu yol Zəngəzur dəhlizi layihəsinin də uğuruna xidmət edəcək. Rayonun bütün kəndlərinin tədricən bərpa edilməsi proqramı da təsdiqlənib və addım-addım yerinə yetirilir.

Azərbaycan Prezidenti İlham Əliyev Qarabağda, Şərqi Zəngəzurda yenidən qurulan digər yurd yerlərimiz kimi, Cəbrayıla da bir neçə dəfə səfər edib, bir çox infrastruktur obyektinin təməlini qoyub, görülən işlərin gedişi ilə yaxından tanış olub. Azərbaycan Prezidentinin müvafiq sərəncamları ilə 2020-ci il noyabrın 26-da "Cəbrayılın azad olunmasına görə" medalının təsis edilməsi, həmçinin dövlət rəhbərimizin daha bir sərəncamı ilə 4 oktyabr tarixinin Cəbrayıl Şəhəri Günü kimi qeyd olunması da rayonun möhtəşəm Zəfərimizdəki şanlı simvoludur. Bu mənəvi dəyəri hazırkı dövrdə dirçəldilən, ölkəmizin ümumi inkişaf axarına qovuşmaqda olan Cəbrayılın nailiyyətləri daha da böyüyəcək, doğma yurdumuzda Azərbaycanın tərəqqi mənzərəsində öz layiqli yerini tutacaq.

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***

# Azərbaycan və Qazaxıstan müdafiə nazirləri "Xəzri-2023" birgə taktiki təliminin növbəti mərhələsini izləyiblər

**Azərbaycanın müdafiə naziri, general-polkovnik Zakir Həsənov, Qazaxıstanın müdafiə naziri, general-polkovnik Ruslan Jaksılıkov və digər vəzifəli şəxslər "Xəzri-2023" birgə taktiki təliminin növbəti mərhələsini izləyiblər.**

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, əvvəlcə təlimin gedişatı ilə bağlı müdafiə nazirlərinə məruzə edilib.





İki mərhələdə keçirilən birgə təlimin növbəti epizodlarında Azərbaycan və Qazaxıstanın dəniz piyadaları və xüsusi təyinatlıları digər qoşun növləri ilə qarşılıqlı əlaqədə qarşıya qoyulan bütün tapşırıqları müvəffəqiyyətlə icra ediblər.

Müdafiə nazirləri ümumilikdə təlimin gedişatını və hərbi qulluqçuların peşəkarlığını yüksək qiymətləndiriblər.

Sonda təlimdə fərqlənən bir qrup hərbi qulluqçuya qiymətli hədiyyələr təqdim edilib.

Qeyd edək ki, "Xəzri-2023" birgə taktiki təlimində İran İslam Respublikasının HDQ-nin nümayəndə heyəti müşahidəçi qismində iştirak edir.

# Azərbaycan nümayəndə heyəti NATO Parlament Assambleyasının iclasına qatılıb

**Danimarkanın paytaxtı Kopenhagen şəhərində NATO Parlament Assambleyasının (PA) 69-cu illik sessiyası öz işinə başlayıb. AZƏRTAC xəbər verir ki, oktyabrın 6-dan 9-dək keçiriləcək sessiyada alyansa üzv olan 31 ölkənin, eləcə də tərəfdaş dövlətlərin nümayəndələri iştirak edirlər.**



Sessiyanın komitə iclasları çərçivəsində Ukraynadakı vəziyyət, alyansın Vilnüs Zirvə görüşündən irəli gələn nəticələr və qəbul olunan qərarlar, Qara dəniz regionunun təhlükəsizliyi, NATO-nun çəkindirmə və müdafiə siyasəti, mühüm dəniz infrastrukturlarının mühafizəsi, trans-Atlantik iqtisadi münasibətlərin və dayanıqlılığın yenidən qurulması, ərzaq və enerji təhlükəsizliyi, NATO-nun tərəfdaşlığı, "açıq qapı" siyasətinin gələcəyi və digər mövzular ətrafında müzakirələr aparılacaq.

Tədbirdə Azərbaycanın NATO yanında nümayəndəliyinin üzvləri və Milli Məclisin NATO PA-dakı nümayəndə heyəti iştirak edirlər.

# Avropa Parlamenti ermənilərin və fransızların sifarişlərini icra edir

**Avropa Parlamentinin (AP) oktyabrın 5-də qəbul etdiyi qətnamə reallıqdan tamamilə uzaq, kağız parçasından başqa bir şey deyil. Bu, bir daha sübut edir ki, AP Fransanın və erməni lobbisinin sifarişlərini icra etməklə məşğuldur. Bu təşkilat ikiüzlü siyasət yürütməklə regionda gərginliyin dərinləşməsində maraqlıdır.**



Milli Məclisin deputatı Azər Badamov qəzetimizə açıqlamasında bildirib ki, Avropa Parlamenti ikili standartlar siyasətinə sadiq qalaraq Azərbaycana qarşı yenə qərəzli qətnamə qəbul edib. Ard-arda qəbul edilən belə qətnamələr Avropa Parlamentinin demokratik dəyərlərdən uzaq olduğunu və Fransanın diktəsi ilə oturub-durduğunu nümayiş etdirir.

"Azərbaycanın öz suverən ərazilərinin bütövlüyünü təmin etməsi Fransanın iç üzünün ortaya çıxmasına səbəb oldu. Fransa ATƏT-in həmsədr dövlətlərindən biri kimi, fəaliyyətə başladıqdan sonra nəinki problemin həllinə bir töhfəsi oldu, hətta Ermənistanın ərazilərimizin işğalını əbədiləşdirməsinə çalışdı. Ermənistanın kapitulyasiya olunmasından sonra isə Fransa Azərbaycana qarşı açıq şəkildə düşmənçilk müstəvisinə keçdi. Ona görə də BMT-də əleyhimizə qərarlar qəbul edilməsi üçün məsələlər qaldırır. Digər tərəfdən Avropa Parlamentinə təzyiq göstərərək, Azərbaycana qarşı qətnamələr qəbul etdirir", - deyə deputat söyləyib.

Azər Badamov qeyd edib ki, AP-nin sonuncu qətnaməsi də əvvəlkilər kimi dəyərsiz və reallıqdan uzaq bir kağız parçasıdır: "Bu kağız parçasında heç bir fakta əsaslanmadan və hətta Qarabağa səfər edən BMT missiyasının yekun rəyi də nəzərə alınmadan iddia olunur ki, bölgədə beynəlxalq hüququn norma və prinsipləri guya tərəfimizdən pozulub. Qətnamədə BMT missiyasının rəyinin nəzərə alınmaması isə Avropa Parlamentinin bu beynəlxalq təşkilata hörmətsizliyinin pik nöqtəsidir. Həmçinin sənəddə Rusiyanın bölgədə mövcudluğuna son qoyulacağı təqdirdə, Avropa İttifaqı tərəfindən Ermənistanın ərazi bütövlüyünün müdafiə ediləcəyinə ümid edilə biləcəyi deyilir. Yəni Avropa Parlamenti boş ümidlər verməklə bölgədə gərginliyi dərinləşdirməyə çalışır. Çünki Avropa İttifaqının Ermənistana göndərə biləcəyi hansısa hərbi gücü yoxdur".

Deputat vurğulayıb ki, Avropa Parlamentinin işi Fransanın və erməni lobbisinin sifarişlərini icra etməkdir: "Ermənistanın tələbi ilə ermənilərin könüllü şəkildə ərazilərimizi tərk etməsinə etnik təmizləmə donu geyindirməsi də Avropa Parlamentinin riyakar və ikiüzlü olmasıyla yanaşı, sülh və əmin-amanlığı yox, müharibə və gərginliyi dəstəklədiyini göstərir. Avropa Parlamentində cüzi ədalət hissi olsaydı, vaxtilə öz doğma yurdlarından güc yolu ilə çıxarılan azərbaycanlılara qarşı törədilmiş etnik təmizləmə ilə bağlı uzun illər ərzində heç olmasa bir dəfə səsini çıxarardı. Maraqlıdır, torpaqlarımız işğal olunaraq yaşayış məntəqələrimiz, mədəni irsimiz, dini etiqad yerlərimiz dağıdalaraq Ermənistan tərəfindən təhqir olunanda avropalı parlamentarilər hara baxırdı? Yoxsa, gözləri kor idi, ya onlar müsəlmanları insan hesab etmirlər?!"

Azər Badamov bildirib ki, bu gün Avropa Parlamenti islamofob, Azərbaycanofob qüvvələrin, riayakar və erməni lobbisi qarşısında rəzil durumda olan, ədalətdən və beynəlxalq hüquqdan uzaq bir toplumun yığıncaq yerinə çevrilib. Bu təşkilatın işi ancaq demokratiya şüarı altında düşmənçilik, ikiüzlülük və gərginlik toxumunu səpməkdən ibarətdir.

Müsahibimizin sözlərinə görə, Avropa Parlamenti erməni lobbisinin maliyyəsinin girovuna çevrilib. Bu qurum üçün beynəlxalq hüquq yox, erməni lobbisinin sifarişləri vacibdir. Lakin nə olursa-olsun, Avropa Parlamentinin qərəzli qətnamələri Azərbaycanı heç vaxt öz yolundan döndərə bilməz. Dövlətimiz öz suverən ərazilərinin bütövlüyünü qorumaq iqtidarındadır.

*Nəzrin QARDAŞXANOVA,*
*"Azərbaycan"*




**İkinci Qarabağ müharibəsində əldə edilmiş böyük Zəfərdən sonra yaranmış yeni reallıqlara uyğun addım atan Azərbaycan həm də geoiqtisadi imkanlarının daha da genişlənməsini mühüm prioritet məsələ kimi müəyyənləşdirib. Çünki Ermənistan üzərində qazanılan qələbə bu proseslərin reallaşması üçün əlverişli şərait yaradıb.**

Bu gün Azərbaycan beynəlxalq miqyaslı transmilli layihələrin reallaşmasında da aktiv rol oynayır. Prezident İlham Əliyevin qlobal təşəbbüsləri ilə ölkəmiz Avropa ilə Asiya arasında ticarət körpüləri yaradır. "Şərq-Qərb", "Şimal-Cənub" nəqliyyat dəhlizlərinin fəal aktorlarından biri kimi Azərbaycan üzərinə düşən bütün öhdəlikləri yerinə yetirir və bu proseslərə mühüm töhfə verir.

Oktyabrın 6-da isə Azərbaycan daha bir geoiqtisadi layihənin gerçəkləşdirilməsi istiqamətində mühüm addım atdı. Zəngilan rayonunun Ağbənd qəsəbəsi yaxınlığında "Azərbaycan Respublikası Hökuməti ilə İran İslam Respublikası Hökuməti arasında İran İslam Respublikasının ərazisindən keçməklə Şərqi Zəngəzur iqtisadi rayonu ilə Naxçıvan Muxtar Respublikası arasında yeni kommunikasiya bağlantılarının yaradılması haqqında Anlaşma Memorandumu" çərçivəsində avtomobil körpüsü və sərhəd-gömrük infrastrukturunun inşası, ərazidə sahilbərkitmə tədbirləri layihələrinin təməlqoyma mərasimi keçirildi və tikinti işlərinə başlanıldı. Bəlli oldu ki, yeni layihəyə əsasən 7 gediş-gəliş xətti olacaq buraxılış məntəqəsi, eləcə də avtomobil körpüsü gündəlik ən azı 1100 yük-nəqliyyat (ixrac, idxal və tranzit malları) vasitələrini qəbul etmək imkanına malik olacaq.

Öncə onu vurğulayaq ki, bu layihə ilə bağlı hələ ötən il iki ölkə arasında razılıq əldə edilmişdi. Anlaşma Memorandumu 2022-ci ilin mart ayının 11-də imzalanmışdı. Bu, ilk növbədə Azərbaycanın geostrateji müstəvidə yeni qələbəsi, tarixi əhəmiyyətə malik hadisə kimi qiymətləndirilmişdi. Sentyabrın 21-də isə Şərqi Zəngəzur iqtisadi rayonu ərazisində İranla dövlət sərhədində inşa olunacaq Ağbənd avtomobil yolu körpüsünün təməlqoyma mərasimi keçirilmişdi. Həmin zaman bildirilmişdi ki, uzunluğu 112 kilometr olan Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolunu İran İslam Respublikasının avtomobil yolları şəbəkəsi ilə Araz çayı üzərindən birləşdirəcək körpünün uzunluğu 216 metr, eni isə 24,5 metr olmaqla layihələndirilib. Körpüdə hər istiqamətdə 2 nəqliyyat vasitəsi və piyadalar üçün 1 hərəkət zolağı nəzərdə tutulub. Həmçinin burada hər iki ölkənin ərazisində gündə 500 ədəd giriş və 500 ədəd çıxış olmaqla, ən azı 1000 ədəd yük nəqliyyat vasitəsini qəbul edə biləcək dövlət sərhədindən buraxılış məntəqəsinin tikintisi də planlaşdırılır.

Oktyabrın 6-da həmçinin Azərbaycanla İran arasında qonşu ölkənin ərazisindən keçməklə Şərqi Zəngəzurla Naxçıvan arasında yeni dəmir yolu xəttinin çəkilməsi ilə bağlı da sənədlər imzalanıb. Bakıda Baş nazirin müavini, Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında iqtisadi, ticarət və humanitar sahələrdə əməkdaşlıq üzrə Dövlət Komissiyasının həmsədri Şahin Mustafayev ilə İran İslam Respublikasının yol və şəhərsalma naziri, komissiyanın İran tərəfdən həmsədri Mehrdad Bəzrpaş arasında görüş zamanı iki mühüm sənədə - İran İslam Respublikasının ərazisindən keçməklə Azərbaycan Respublikasının Şərqi Zəngəzur iqtisadi rayonu ilə Naxçıvan Muxtar Respublikası arasında yeni dəmir yolu xəttinin və dəmir yolu körpülərinin tikintisi haqqında Niyyət Protokolu və Azərbaycan-İran dövlət sərhədində Ağbənd (Azərbaycan Respublikası) - Kəlalə (İran İslam Respublikası) dövlət sərhədinin buraxılış məntəqələrində Araz çayı üzərində avtomobil sərhəd körpüsünün və piyada keçidinin tikintisinə dair Birgə İşçi Qrupun həmsədrlərinin görüşünün Protokoluna imza atılıb.

Bütün bunlar onu deməyə əsas verir ki, Azərbaycan və İran Avrasiya üçün yeni ticarət körpüləri yaradır. Məğlub Ermənistan isə bu geostrateji layihədən kənarda qalır. Çünki İkinci Qarabağ müharibəsindən sonra bu ölkə 10 noyabr Bəyanatında nəzərdə tutulan öhdəliyini - Zəngəzur dəhlizinin açılması ilə bağlı proseslərin heç birini reallaşdırmadı. Azərbaycan dəmir və avtomobil yollarını inşa etdi və bir daha göstərdi ki, öhdəliklərə sadiqdir.

Bu dəhliz Azərbaycanın Şərqi Zəngəzur bölgəsi ilə Naxçıvanın əlaqələrini bərpa edəcəkdi. Ancaq Ermənistan rəhbərliyi elə zənn edirdi ki, belə bir kommunikasiya yalnız onun ərazisindən və onun icazəsi ilə yaradıla bilər. Ermənistan bu amili Azərbaycana qarşı təsir vasitəsi kimi istifadə etməyi, özündən asılı vəziyyətdə saxlamağı planlaşdırmışdı. İndi bütün bu cəhdlərin sabun köpüyü olduğunu aydın görən Ermənistan bir daha əsaslı şəkildə düşünməlidir - buna dəyərdimi?

Qalib Ali Baş Komandan kimi İlham Əliyev bir daha Ermənistana göstərdi ki, hər zaman sözünü deyir və onu həyata keçirir. İndi Ermənistan növbəti dəfə şansını itirmiş oldu.

Yeni layihə böyük iqtisadi dividendlər gətirməklə yanaşı, həm də Naxçıvan MR-in blokadadan çıxmasında, muxtar respublikanın Azərbaycanın əsas hissəsi ilə etibarlı və davamlı bağlantısının yaradılmasında mühüm rol oynayacaq.

Yeni iqtisadi layihənin gerçəkləşməsi tarixi hadisədir, Azərbaycan diplomatiyasının növbəti qələbəsidir. Bu, ölkəmizin iqtisadi inkişafında mühüm rol oynayacaq.

İran ərazisi vasitəsilə Şərqi Zəngəzur iqtisadi rayonu ilə Naxçıvan arasında yeni kommunikasiya bağlantılarının yaradılması regionun nəqliyyat-kommunikasiya xəritəsində strateji dəyişikliklərə səbəb olacaq. "Şimal-Cənub" nəqliyyat dəhlizinin bir qolu olacaq yeni nəqliyyat yolunun işə salınması istiqamətində çox mühüm addımlar atılır və bu, həm "Şərq-Qərb", həm də "Şimal-Cənub" istiqamətlərində əməkdaşlıq üçün əlverişli zəmin yaradacaq.

Baş nazirin müavini Şahin Mustafayev Zəngilanda jurnalistlərə açıqlamasında sözügedən layihələrlə bağlı məlumat verərək bildirib ki, Zəngilanın Ağbənd qəsəbəsi yaxınlığında və Naxçıvan ərazisində tikiləcək körpülər vasitəsilə İran ərazisindən keçməklə bağlantı yaradılacaq. Qarşılıqlı razılaşma əldə olunub, körpünün layihəsi hazırlanıb. Bundan başqa, Araz çayı sahilinin bərpası işləri də aparılıb və çay əvvəlki məcrasına qaytarılıb. Eyni zamanda gömrük keçid məntəqəsi infrastrukturunun da yaradılması nəzərdə tutulur. Ağbənd avtomobil yolu ilə gündəlik 1100 avtomobilin, 30 avtobusun, 15 min insanın sərhəddən keçidi təmin olunacaq. Bu yol tranzit yüklərin daşınmasına da xidmət edəcək. Həm Azərbaycan, həm İran, həm də region üçün əhəmiyyətli olacaq. Bu yol Şərqi Zəngəzur iqtisadi rayonu üçün zəruri infrastrukturdur. Bunun nəticəsində bölgə logistik mərkəzə çevriləcək. Ərazidə avtomobil yolu ilə yanaşı, dəmir yolu körpüsünün də tikintisi nəzərdə tutulub. Bütün infrastruktur bir il ərzində reallaşdırılacaq.

Bir sözlə, Azərbaycan daha bir mühüm geostrateji layihə ilə bir daha Avrasiyanın həm də nəqliyyat-tranzit mərkəzlərindən birinə çevrildiyini təsdiqləyir. Bütün bu layihələr Şərqi Zəngəzurun tezliklə hərtərəfli tərəqqisinə real zəmin yaradacaq.

*Rəşad BAXŞƏLİYEV,*
*"Azərbaycan"*

# Şərqi Zəngəzurdan Naxçıvana yeni yol

## Zəngilan-İran körpüsü hər iki ölkəyə böyük iqtisadi dividendlər qazandıracaq

**Xəbər verildiyi kimi, oktyabrın 6-da Zəngilan rayonunun Ağbənd qəsəbəsi yaxınlığında "Azərbaycan Respublikası Hökuməti ilə İran İslam Respublikası Hökuməti arasında İran İslam Respublikasının ərazisindən keçməklə Azərbaycan Respublikasının Şərqi Zəngəzur iqtisadi rayonu ilə Naxçıvan Muxtar Respublikası arasında yeni kommunikasiya bağlantılarının yaradılması haqqında Anlaşma Memorandumu" çərçivəsində avtomobil körpüsü və sərhəd-gömrük infrastrukturunun inşası, ərazidə sahilbərkitmə tədbirləri layihələrinin təməlqoyma mərasimi keçirilib və tikinti işlərinə başlanılıb.**



Zəngilan körpüsü iki ölkə ərazisindən keçən tranzit yükdaşımalarının artımına və Naxçıvana gediş-gəlişin asanlaşdırılmasına xidmət edəcək. 7 gediş-gəliş xətti olacaq dövlət sərhədindən buraxılış məntəqəsinin, eləcə də avtomobil körpüsünün gündəlik qəbul edə biləcəyi yük-nəqliyyat vasitələrinin sayı ən azı 1100 təşkil edəcək.

Körpünün əhəmiyyəti barədə "Azərbaycan" qəzetinə danışan Milli Məclisin deputatı Vüqar Bayramov bildirib ki, Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasında quru nəqliyyat əlaqəsinin yaradılması istiqamətində atılan bu addım regionun inkişafı baxımından vacibdir.

Deputat qeyd edib ki, bu yol region, o cümlədən Azərbaycan üzərindən daşınan yüklərin həcminin artmasına imkan verəcək, ölkəmizin beynəlxalq yükdaşımalardan əldə etdiyi gəlirin həcmini artıracaq. Eyni zamanda bu nəqliyyat yolu həm də "Şərq-Qərb" nəqliyyat dəhlizinə inteqrasiya olunacaq, nəticədə bu, bütövlükdə regionun əməkdaşlıqdan faydalanmasına imkan verəcək. Digər tərəfdən, bu nəqliyyat xətti həm də Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən iş adamları üçün də daşımalara yeni bir imkan yaradacaq. Çünki onlar istehsal etdikləri məhsulları daha qısa müddətdə, asan və az xərclə Azərbaycanın əsas hissəsinə nəql edə biləcəklər.

V.Bayramov əlavə edib ki, bu, eyni zamanda, həmin iş adamları üçün ixrac imkanları baxımından da əhəmiyyətlidir: "Bu tərəfdaşlıq İranın Azərbaycanla regionda əməkdaşlığının genişləndirilməsində maraqlı olduğunu bir daha təsdiq etdi. Bütün bunlarla yanaşı, bu, həm də bir daha sübut etdi ki, Ermənistan özünütəcrid siyasətini davam etdirir. Əslində, məhz bu siyasət nəticəsində Ermənistan yenidən regional layihələrdən kənarda qaldı".

Deputat deyib ki, bu, həm də Ermənistan hakimiyyətinin müstəqil siyasət yürüdə bilməməsinin göstəricilərindən biridir. Bütün hallarda bu anlaşma Azərbaycanın yeni regional uğuru, Ermənistanın təcrid siyasətinin davam etməsidir. Təbii ki, qazanan məhz əməkdaşlıqda iştirak edən tərəflərdir.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Bakıda keçirilən "Eternity-2023" kompüter dəstəkli komanda-qərargah təlimi başa çatıb

**Azərbaycan, Türkiyə və Gürcüstanın hərbi qulluqçularının iştirakı ilə Bakıda keçirilən "Eternity-2023" kompüter dəstəkli komanda-qərargah təlimi başa çatıb.**







Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, hər üç ölkənin hərbi qulluqçularının və aidiyyəti dövlət qurumlarının nümayəndələrinin cəlb olunması ilə keçirilən təlimdə strateji əhəmiyyətli, eləcə də regional iqtisadi layihələrin mühafizəsinin təşkili üzrə tapşırıqlar icra edilib.

Milli Müdafiə Universitetinin Hərbi İdarəetmə İnstitutunun Hərb Oyunları Mərkəzində təlimin başa çatması münasibətilə tədbir keçirilib.

Tədbirdə qeyd edilib ki, təlimin keçirilməsində əsas diqqət Azərbaycan, Türkiyə və Gürcüstanın silahlı qüvvələri arasında qarşılıqlı əməkdaşlığın gücləndirilməsi və uzlaşmanın təmin edilməsinə yönəldilib. "Eternity-2023" kompüter dəstəkli komanda-qərargah təlimində qarşıya qoyulmuş bütün tapşırıqların uğurla yerinə yetirildiyi diqqətə çatdırılıb.

Sonda qarşılıqlı hədiyyələr təqdim edilib.

# Xocalıda itkin düşmüş şəxslərə aid ehtimal edilən məzar yerlərində qazıntı və ekshumasiya işləri aparılacaq

**Ermənistan tərəfi humanitar hüquq normalarının ziddinə olaraq, I Qarabağ müharibəsində itkin düşmüş bütün Azərbaycan vətəndaşlarının, o cümlədən Natiq Qasımovun dəfn yeri barədə məlumatları gizlətmiş və bu gün də bu qeyri-insani əməlini davam etdirir.**



AZƏRTAC xəbər verir ki, bu barədə Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının yaydığı məlumatda bildirilib.

Qeyd edilib ki, Natiq Qasımov hazırda Dövlət Komissiyasında I Qarabağ müharibəsində itkin düşmüş şəxs kimi qeydiyyatdadır.

"Dövlət Komissiyası I Qarabağ müharibəsində itkin düşmüş bütün Azərbaycan vətəndaşlarının, həmçinin Natiq Qasımovun axtarışlarını davam etdirir. Təəssüf ki, Natiq Qasımovun dəfn yeri barədə Dövlət Komissiyasında məlumat yoxdur. Ancaq ehtimal etmək olar ki, onun meyiti Xocalı rayonu ərazisində dəfn edilib. Dövlət Komissiyası işğaldan azad edilmiş bütün ərazilərimizdə, həmçinin Xocalı rayonu ərazisində I Qarabağ müharibəsində itkin düşmüş şəxslərə aid ehtimal edilən məzar yerlərində qazıntı və ekshumasiya işlərini aparacaq", - məlumatda vurğulanıb.

# Bütün cinayətlərin üstü açılacaq

## Separatçılar qanunlarımız və ədalət qarşısında dayanıblar

**"Azərbaycan öz sərhədləri daxilində lokal xarakterli antiterror tədbirlərini həyata keçirməklə 30 ildən artıq zamanda ölkəmizin ərazisində yer tutan separatçı cinayətkar rejimi süquta uğratdı. 2020-ci ilə qədər də öz təmkinimizi nümayiş etdirərək keçmiş Azərbaycan-Ermənistan münaqişəsini dinc yolla, danışıqlar vasitəsilə aradan qaldırmağa cəhd göstərdik, bunun üçün addımlar atdıq. Lakin Ermənistan Azərbaycanın mövqeyini düzgün qiymətləndirməyi bacarmadı və layiqli cəzasını aldı".**



Bu sözləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Elşad Mirbəşiroğlu deyib. O bildirib ki, Vətən müharibəsindən sonra da Ermənistana və Azərbaycan ərazisində olan ermənilərə barış əlimizi uzadaraq sülh şərtlərini təqdim etmişik. Bu şərtlər Azərbaycan ərazilərini işğal altında saxlamış Ermənistanla münasibətlərin normallaşdırılması üçün tam adekvat, beynəlxalq hüququn norma və prinsiplərinə uyğun idi. Məqsəd bu idi ki, Ermənistan ölkəmizə olan ərazi iddialarından əl çəksin, sərhədlərin delimitasiya və demarkasiyası aparılsın, ərazi bütövlüyümüzü tanısın və torpaqlarımızdan hərbi birləşmələrini çıxartsın. Bütün bunlar rəsmi sənəd üzərində təsdiqini tapmadan Azərbayan-Ermənistan münasibətlərinin normallaşmasından danışmaq üçün heç bir əsas ola bilməz.

Deputat qeyd edib ki, Ermənistan son dövrlərə qədər yenə imitasiyalarla məşğul olaraq Azərbaycanla yekun sülh sazişini imzalamaqdan hər vasitə ilə yayınmağa çalışıb. "Lakin Ermənistan dövlətimizin gücü və iradəsi qarşısında geri çəkilmək məcburiyyətində qaldı. Hesab edirəm ki, lokal xarakterli antiterror tədbirlərindən sonra ermənilər tarixdə heç vaxt olmadığı bir dərsi Azərbaycandan almış oldu. Onlar hər zaman düşünürdü ki, cəzasızlıq şəraiti davamlı olacaq və istəklərini həyata keçirəcək, Azərbaycan torpaqları hesabına ərazilərini böyüdə biləcəklər. Lakin dünya erməniliyi aydın gördü ki, Azərbaycana qarşı istənilən cinayət xarakterli addım layiqli cavabla, sərt reaksiya ilə qarşılanır", - deyə E.Mirbəşiroğlu əlavə edib.

Onun sözlərinə görə, Azərbaycan Ermənistan və ermənilər tərəfindən bir daha təhdid yaradılması üçün bütün zəruri preventiv addımları atır. Separatçı rejimin sıradan çıxarılmasından sonra onun rəhbərlərinin cinayət məsuliyyətinə cəlb olunması Azərbaycanın gücünün, iradəsinin göstəricisidir. Onların məsuliyyətə cəlb edilməsi Azərbaycanın vaxtilə sərgiləmiş olduğu daha bir mövqenin reallıqda əksini tapdığını nümayiş etdirdi. Hər zaman qeyd edirdik ki, əli Azərbaycan xalqının qanına bulaşmış, ölkəmizə qarşı cinayətlər törətməkdə iştirak etmiş şəxslər kimliyindən asılı olmayaraq layiqli cəzasını alacaq, qanunlarımız qarşısında cavab verəcəklər.

Deputat vurğulayıb ki, bu gün tarixi anlar yaşanır, separatçılar, cinayətkarlar qanunlarımız və ədalət qarşısında dayanıblar: "Hesab edirəm ki, separatçı ermənilərin xalqımıza, dövlətimizə qarşı törətmiş olduğu bütün cinayətlərin üstü açılacaq. Bu cinayətləri törədən hər bir şəxs məsuliyyətə cəlb olunacaq. Bununla yanaşı, digər çoxsaylı cinayətlərin də üstü açılacaq və bu, separatçılar, təcavüzkar Ermənistan üçün heç vaxt unutmayacaqları tarixi bir dərs olacaq".

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Erməni qatillərin ədalət mühakiməsi

## Azərbaycan xalqına qarşı cinayət əməlləri törətmiş canilərin hamısı cavab verəcək











**Qarabağ bölgəsində aparılan lokal antiterror tədbirləri nəticəsində cəmi 23 saat ərzində suverenliyini tam bərpa edən Azərbaycan bu ərazidə kök salmış erməni separatizminin quldur yuvasını dağıtdı.**

Bununla illərdir təşkilatlanaraq və öz mənfur niyyətlərinə bəzi qərəzli xarici ölkə və qurumları da alət edərək xalqımıza qarşı milli düşmənçilik aparan, ərazimizdə ikinci erməni dövləti yaratmaq kimi murdar planlar quran Ermənistana və erməni lobbisinə qüdrətli dövlətimiz sarsıdıcı, bir daha dirçələ bilməyəcəkləri zərbə endirdi.

### "Erməni separatizminin son payızı"

Sentyabrın 19-20-də apardığı antiterror tədbirləri nəticəsində suverenliyini tam bərpa edən Azərbaycanın bu qalibiyyətini erməni lobbisinin pulunu yeyən, başda Faransa və Avropa Parlamenti olmaqla, bəzi riyakar ölkə və qurumlar həzm edə bilmirlər.

Elə adı rüşvət qalmaqallarında, korrupsiyada hallanan Avropa Parlamentinin oktyabrın 5-də qətnamə adı altında qəbul etdiyi kağız parçası da Ermənistan və dünya erməniçiliyi üçün rüşvətxor avroparlamentarilərin xorla ifa etdikləri, bəstəsi və sözləri özlərinə aid olan "erməni separatizminin son payızı" adlı mahnının not kağızlarından biri idi.

Amma erməni təəssübkeşləri də bilirlər ki, onların uyduraraq ifa etdiyi bu köhnə havaya daha heç kim oynamır... Özlərini gülünc vəziyyətə qoyaraq, o boyda Avropa Parlamentini erməni yalanlarının güdazına verən, nüfuzdan salan rüşvətxor deputatlar indi çıxılmaz vəziyyətdə, dəhşət içərisindədirlər... Axı erməni lobbisinin pulları əllərindən çıxıb...

Digər vurğulanası məqam isə Fransa Prezidenti Emmanuel Makronun Azərbaycana qarşı sanksiyaların mənasız olacağını etiraf etməsidir.

Bütün bu faktlar göstərir ki, haqq nazilsə də, heç zaman üzülmədi və dönüb dolaşıb öz yerini tapdı.

### Bu ünsürlər layiqli cəzalarını alacaqlar

Ermənistan və xarici havadarlarının çırpıntılarına baxmayaraq, 2023-cü ilin xəzan fəsli illərdir Azərbaycan xalqının qanına, canına susamış faşizm ideyalı erməni qatillərinin, canilərinin əsl yarpaq tökümünə çevrildi.

Vaqif Xaçatryan, Ruben Vardanyan, Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan kimi ünsürlər bir-bir tutularaq törətdikləri cinayət əməllərinə görə Azərbaycan qanunları qarşısında cavab verməyə başlayıblar.

Xocalıda Meşəli qırğınını törədənlərdən olan Vaqif Xaçatryan həm də azərbaycanlı əsirlərə ən çox işgəncə verən canilərdən biridir. Birinci Qarabağ müharibəsində yaralı vəziyyətdə əsir düşən və bir müddət sonra əsirlikdən qayıdan Ucar sakini Mail Məmmədov Laçın keçid məntəqəsində saxlanılan Vaqif Xaçatryanın ona verdiyi işgəncələri bu il iyulun 30-da yerli mətbuata müsahibəsində belə dilə gətirib: "Mən əsirlikdə olduğum müddətdə olmazın işgəncələrə məruz qalmışam. Amma mənə ən çox dözülməz işgəncələr verən Vaqif olub. Mənim başıma qaynayan çaydanı tökdü. Qaynar su başımın dərisini tamamilə sıyırıb çıxartdı. Ürəyi soyumayan erməni daha sonra əvvəlcədən hazırlanmış dəmir xaçı odun sobasında qızdıraraq sinəmə basdı. Ümumiyyətlə, əsirlik dövründə azərbaycanlılara ən çox işgəncə verən keçid məntəqəsində saxlanılan Vaqif olub. Ötən gün televiziyada onu görən kimi tanıdım. Və mənə verdiyi işgəncələr gözümün önünə gəldi. Onu televiziya ekranında görəndən bu vaxta kimi hələ də özümə gələ bilməmişəm".

Qondarma rejimin cinayətkar başçısı Arayik Harutyunyan 2020-ci ildə müharibə meydanından kilometrlərlə uzaqda yerləşən Gəncə şəhərini "vur" əmrini vermiş, xeyli sayda mülki insanımızın ölümünə bais olmuşdu. Qatil Arayik bu əməlini qürrələnə-qürrələnə videokamera önündə etiraf etmiş, Azərbaycanın digər böyük şəhərlərinə də zərbə endirəcəklərini həyasızlıqla demişdi.

İstər Xaçatryan, Harutyunyan, Qukasyan, Sahakyan və digərləri olsun, onların hamısı əlləri azərbaycanlıların qanına batmış qatillərdir.

Bu faşist xislətlilər xalqımıza qarşı milli düşmənçilik zəminində cinayət əməlləri törədir, elə güman edirdilər ki, etdikləri cəzasız qalacaq. Ona görə idi ki, utanıb çəkinmədən həyata keçirdikləri soyqırımları, terrorları açıq-aydın etiraf edirdilər.

### Şəhidlərimizin qanı yerdə qalmadı

Amma budur, bütün separatçı erməni qatilləri əlləri qandallı, başları aşağı paytaxt Bakıya gətirilərək Azərbaycan qanunları qarşısında sorğulanırlar.

Necə ki bunu 2023-cü il sentyabrın 20-də xalqa müraciəti zamanı Prezident İlham Əliyev qətiyyətlə bildirmişdi: "Xocalı soyqırımında, şəhərlərimizin, kəndlərimizin dağıdılmasında, qəbirlərin qazılmasında biz erməni xalqını günahlandırmamışıq. Biz kriminal rejimin ünsürlərini, başda duranlarını ittiham etmişik və biz onları məsuliyyətə cəlb edirik və edəcəyik. Bəziləri artıq öz layiqli cəzasını alıblar, bəziləri də alacaqlar".

Bəli, qüdrətli Azərbaycan dövləti Ermənistan və dünya erməniçiliyinin bütün çabalarına, rüşvətlə, siyasi şantajla bəzi riyakar ölkə və qurumları öz yanına çəkmələrinə rəğmən cəmi üç il ərzində həm torpaqlarını işğaldan azad etdi, həm də ərazi bütövlüyü və suverenliyini tam təmin etdi.

Və Qarabağda separatizmin başını əzən dövlətimiz Xocalıda, Ballıqayada, Başlıbeldə, Gəncədə, Bərdədə, Tərtərdə və daha sadalamadığımız neçə-neçə ərazidə xalqımıza qarşı soyqırımı, qətliamlar törədən, əsirlikdə, girovluqda olan azərbaycanlılara olmazın işgəncələr verərək öldürən erməni qatillərinə də bir-bir layiqli cəzalarını verir.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# Ombudsman: "Beynəlxalq ictimaiyyəti Ermənistanın mina terroruna qarşı müvafiq sanksiyalar tətbiq etməyə çağırıram"



Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyeva ötən gün baş vermiş mina partlayışları ilə bağlı bəyanat yayıb. AZƏRTAC xəbər verir ki, bəyanatda deyilir:

"Ermənistanın mina terroru mülki şəxslərin və hərbi qulluqçularımızın həyatına təhlükə yaratmaqda və son qoymaqda davam edir.

Oktyabrın 6-da baş vermiş üç mina hadisəsi nəticəsində bir mülki şəxs həlak olmuş, Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının hərbi qulluqçusu və digər mülki şəxs yaralanmışdır.

İşğaldan azad edilmiş ərazilərimizdə Ermənistan tərəfindən basdırılmış minalar mülki şəxslərin və hərbi qulluqçularımızın təhlükəsizliyinə, regionda sülh quruculuğu prosesinə, həyata keçirilən infrastruktur layihələrinin icrasına, habelə keçmiş məcburi köçkünlərin öz doğma torpaqlarına qayıdışı prosesinə ciddi maneə yaradır.

Dəfələrlə müraciət edilməsinə baxmayaraq, Ermənistan tərəfinin dəqiq mina xəritələrini ölkəmizə təhvil verməməsi mülki şəxslərin və hərbi qulluqçuların həlak olması ilə nəticələnir. Ermənistanın bu addımı onların bölgədə sülhün bərpa olunmasında maraqlı olmadıqlarını bir daha göstərir.

Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili olaraq, dəqiq mina xəritələrinin Ermənistan tərəfindən ölkəmizə təhvil verilməsini, regionda sülhün bərqərar olunmasında birliyin nümayiş olunmasını qəti şəkildə tələb edir, beynəlxalq ictimaiyyəti Ermənistanın mina terroruna qarşı müvafiq sanksiyalar tətbiq etməyə çağırıram".

* * *

Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyeva İstanbulda İslam Əməkdaşlıq Təşkilatının Ombudsmanlar Assosiasiyasının (İƏT OA) ümumi yığıncağında iştirak edib.

Bu barədə AZƏRTAC-a Ombudsman Aparatından məlumat verilib.

Qeyd edilib ki, tədbirdə çıxışı zamanı Səbinə Əliyeva İƏT OA-nın fəaliyyəti çərçivəsində məlumatlılığın artırılması sahəsində mühüm təşəbbüslər həyata keçirildiyini, Azərbaycanın Ombudsman təsisatının bu səylərin fəal iştirakçısı olduğunu və digər üzv qurumlarla təcrübə mübadiləsinin aparıldığını bildirib.

S.Əliyeva dünyada islam ölkələrinə, o cümlədən Azərbaycana qarşı haqsızlıqların və beynəlxalq münasibətlərdə ikili standartların davam etdiyini qeyd edib. Ombudsman Azərbaycan torpaqlarında Ermənistan tərəfindən törədilən müharibə cinayətləri barədə məlumat verib. Həmçinin Birinci Qarabağ müharibəsi dövründə itkin düşmüş 4000-ə yaxın azərbaycanlının taleyinin bu günədək naməlum qaldığını qeyd edib.

S.Əliyeva işğaldan azad olunmuş torpaqlarımızda Ermənistan tərəfindən basdırılmış minaların hərbi qulluqçularımızın və mülki şəxslərin həyatına son qoymaqda davam etdiyini, indiyədək 300-dən çox şəxsin mina terrorunun qurbanına çevrildiyini bildirib. Ombudsman 31 il əvvəl törədilmiş Xocalı faciəsi barədə məlumat verərək bildirib ki, bu soyqırımı beynəlxalq sənədlərdə təsbit olunmuş hüquq və azadlıqların kobud şəkildə pozulması ilə nəticələnən etnik təmizləmə siyasətinin sübutudur. S.Əliyeva ədalətin bərpa edilməsi üçün xalqların və beynəlxalq təşkilatların Xocalı soyqırımına beynəlxalq siyasi və hüquqi qiymət verməsinin zəruriliyini vurğulayıb.

Müvəkkil belə bir qətliamın bir daha təkrarlanmaması, cinayətkarların ədalət mühakiməsinə cəlb olunması məqsədilə İƏT OA tərəfindən aidiyyəti beynəlxalq qurumlar qarşısında məsələlərin qaldırılması istiqamətində müraciət edib.

Tədbirdə İƏT Ombudsmanlar Assosiasiyasının İdarə Heyətinə seçkilər keçirilib. Səbinə Əliyeva assosiasiyanın İdarə Heyətinə yenidən üzv seçilib.

# Arayik Harutyunyan və digər canilərin həbs edilməsi beynəlxalq hüququn tələbidir

**Azərbaycan Ordusu 44 günlük müharibədə göstərdiyi qəhrəmanlıqla BMT Təhlükəsizlik Şurasının qətnamələrini və beynəlxalq hüququn tələbini təkbaşına icra etdi. 44 günlük müharibədə qazanılan parlaq qələbə ilə son 30 ildə beynəlxalq hüquq və ədalət bərpa olundu.**



Sentyabrın 19-da Qarabağdakı qanunsuz erməni hərbi birləşmələrinə və erməni terrorçularına qarşı başlanan və cəmi 23 saat davam edən lokal xarakterli antiterror əməliyyatı ilə proses sona çatdı və Azərbaycan bu bölgədə suverenliyini bərpa etdi. Bu, son 31 ilin ən əlamətdar hadisəsidir ki, haqq-ədalət bir daha zəfər çaldı və separatçı rejim özünü buraxdı, erməni terrorçuları, Qarabağdakı keçmiş separatçı rejimin rəhbərləri həbs edildilər. Xüsusən Arayik Harutyunyanın həbs edilməsi tarixi ədalətin və beynəlxalq hüququn tələbi və icrasıdır.

Qarabağdakı keçmiş separatçı və quldur rejimin keçmiş başçısı terrorçu Arayik Harutyunyan və digər separatçılar beynəlxalq qanunlarla ən ağır cinayət hesab edilən hərbi cinayətlər, terror əməlləri törədiblər. Azərbaycanın beynəlxalq ictimaiyyət tərəfindən tanınan suveren ərazilərində hərbi birləşmə, terror ocaqları, təxribat, kəşfiyyat və diversiya qrupları yaratmış mülki sakinlərin yaşadığı əraziləri və obyektləri bombalamış, mülki sakinləri qətl etmiş, mina terroru həyata keçirmiş və digər bu kimi ağır cinayətlər törətmişlər. Arayik Harutyunyan və onunla birgə digər separatçılar, terrorçular yerli və beynəlxalq qanunlara müvafiq olaraq mühakimə ediləcək və ən ağır şəkildə cəzalarını alacaqlar.

Prezident İlham Əliyevin qətiyyətli və uzaqgörən siyasəti diplomatiya ilə bərabər, hərb meydanında da öz sözünü deməkdədir. Cənab İlham Əliyevin uğurlu, prinsipial, uzaqgörən və praqmatik siyasəti nəticəsində Azərbaycan Ordusu daha da güclənmiş və hazırda regionun ən güclü ordusudur. Məhz bunun göstəricisidir ki, Azərbaycan Ordusu düşmən üzərində son 200 ilin tarixi və parlaq qələbəsini qazanaraq şanlı bir tarix yazdı.

Xocalı cəlladları, əsgərlərimizin, xalqımızın və günahsız dinc sakinlərimizin qanını axıdanlar həbs olunaraq məsuliyyətə cəlb edilmişlər. Bütün Xocalı canilərinin və xüsusən 2020-ci ilin Vətən müharibəsində Gəncə, Bərdə və digər bölgələrimizdə mülki insanların yaşadığı ərazilərin bombalanması, Azərbaycan ərazilərinin minalanması nəticəsində çox sayda hərbçimizin, mülki vətəndaşlarımızın, ərazilərimizdə xidmət aparan polis əməkdaşlarının mina terroruna məruz qalaraq və atəşə tutularaq öldürülməsindən tutmuş mütəmadi hərbi təxribatlar, terrorlar və milli, irqi və dini zəmində ağır hərbi cinayətlər törədərək çox sayda əsgərimizin və mülki sakinlərimizin şəhid edilməsində günahkar olan Arayik Harutyunyanın və digər Xocalı canilərinin həbs edilməsi son 31 ildə müstəqillik tariximizin qızıl hərflərlə yazılacaq hadisəsidir. Bu hadisə özlüyündə yeni bir tarixin və yeni bir mərhələnin başlanğıcı, Azərbaycanın tarixi qələbəsinin rəmzidir.

Bununla da bütün mənfur düşmən qüvvələrin, ermənilərin havadarlarının məkrli oyunları, ermənipərəst dövlətlərin və mərkəzlərin məkrli planları alt-üst oldu və iflasa uğradı. Fransa və digər ermənipərəst avantürist qüvvələrin forpostu olan quldur və xunta rejiminin rəhbərlərinin və xüsusən hərbi cinayətkar və terrorçu Arayik Harutyunyanın DTX əməkdaşları tərəfindən yaxalanması Azərbaycanın qələbəsinin kulminasiya nöqtəsidir. Bununla da bir daha bütün mənfur düşmənlərin, özlərini bu günə qədər forsmajor hesab edənlərin məkrli planları yerlə yeksan oldu. Başda qalib Ali Baş Komandan cənab İlham Əliyev olmaqla, onun qətiyyətli siyasəti, prinsipial və əzmkar mövqeyi, uzaqgörən və parlaq siyasəti Azərbaycan dövlətinin gücü və qüdrəti, Azərbaycan Ordusunun qəhrəmanlığı, Azərbaycan təhlükəsizlik və kəşfiyyat orqanlarının çevikliyi bütün mənfur düşmənlərin məkrli siyasətini bundan sonra da alt-üst edəcək. Artıq bütün dünya başa düşməli və Azərbaycana qarşı məkrli planlar quran və antikampaniyalar həyata keçirən avantürist qüvvələr anlamalıdırlar ki, bölgənin aparıcı ölkəsi Azərbaycandır. Hər bir xarici dövlət və hər kəs statusundan və kimliyindən asılı olmayaraq, Azərbaycan dövləti ilə bu bölgədə hesablaşmalı və Azərbaycana qarşı forpost qüvvə yaratmaq siyasətindən birdəfəlik əl çəkməlidir. Fransanın, ermənilərin oyuncağı olmuş Avropa Parlamentinin və digər ermənipərəst qüvvələrin bölgədə ermənilərin müdafiəçisi qismində görsənib, əslində, özlərinin qəsbkarlıq, talançılıq və imperialist siyasətini həyata keçirməyə çalışaraq Azərbaycana qarşı mənfur planlar, antikampaniyalar həyata keçirməyə çalışması heç bir nəticə verə bilməz. Parisin, Avropa Parlamentinin və digər ermənipərəst mərkəzlərin bütün məkrli planları və ermənipərəst siyasəti hər zaman iflasa uğrayacaq.

*Mirsamir MƏMMƏDOV,*
*İsrail Təhlükəsizlik Akademiyasının Azərbaycan Respublikasındakı Qafqaz üzrə Regional Nümayəndəliyinin direktoru*

# Fransa terrorçulara, təcavüzkarlara havadarlıq edir

**Ermənilər terroru, qətlləri, insanlara qarşı təcavüzü, xəyanəti, qarşıdurmalar yaratmağı özlərinin bir qəhrəmanlıq nümunəsi kimi tarixən təbliğ etmiş, bundan qürur duymuş və övladlarını da bu ruhda tərbiyələndirmişlər.**



Ən qədim və mədəni xalq xülyası ilə yaşayan, ancaq dünyada vəhşi, qaniçən, dönük bir toplum kimi tanınan, onun-bunun kölgəsinə sığınıb yazıq, məzlum obrazı yaradan ermənilər havadarlarının köməyi ilə dirçələndə tanınmaz olublar, quduzlaşıblar və nəinki başqalarına, hətta onları yedizdirənlərə, torpaq və yurd verənlərə də düşmən kəsiliblər, arxa çeviriblər.

Erməni millətçiləri tarixən azərbaycanlıları və türkləri özlərinə düşmən hesab ediblər. Hər an onların qanını içməyə hazır olduqlarını açıqca söyləsələr də və imkan olan kimi bunu etsələr də, ancaq digər xalqlara da nifrətlərini gizlətməmişlər. Şərqi Türkiyə, Şimali İran və Azərbaycanın Naxçıvan, Qarabağ torpaqlarını birləşdirməklə böyük bir ərazidə "böyük Ermənistan" yaratmaq, Gürcüstan ərazisinin bir hissəsini zəbt etmək, digər dövlətlərin ərazilərində muxtariyyət formalaşdırmaq məqsədi ilə haylar uzun illər ən çirkin əməllərə əl atmış, onlara dəstək verməyənləri, haqq-ədaləti müdafiə edənləri özlərinə düşmən saymış və onlardan qisas almağa çalışmışlar.

Bu məqsədlə ermənilər bir çox terrorçu qruplaşmalar yaratmışlar ki, onlardan da "Daşnaksütyun" partiyasının təşkil etdiyi "Ermənistanın Azadlığı uğrunda Gizli erməni Ordusu" (ASALA) terror təşkilatı hal-hazırda bir neçə ölkədə fəaliyyətini davam etdirməkdədir. Bu terror təşkilatı türkləri və azərbaycanlıları əsasən hədəf seçməsinə baxmayaraq, digər xalqlara qarşı da amansız qətllər həyata keçirməkdədir. Öz fəaliyyətini Fransada daha çox genişləndirən ASALA-ya ölkədə sərbəst hərəkət etmək üçün hər cür imkan yaradılmışdır ki, terror təşkilatı da bu qayğıdan hərtərəfli bəhrələnməkdədir.

Qərargahı Beyrutda, təlim-məşq bazaları Suriyada yerləşən terror təşkilatı öz fəaliyyətini ABŞ, Yunanıstan, Cənubi Kipr, İsveçrə və Kanadada davam etdirməklə dinc insanlar üçün təhlükə yaratmaqdadır. Son illər bir çox ölkələrdə Türkiyənin və Azərbaycanın səfirliklərinə edilən basqınlar, baş verən qanlı terror hadisələri bunu deməyə əsas verir.

ASALA Azərbaycanı və Türkiyəni dəstəkləyən ölkələrə qarşı da düşmən və amansız mövqe tutmuşdur. İrəvanda yəhudi sinaqoquna hücumu da bu terror təşkilatı təşkil etmişdir. Terrorçular açıq bəyan etmişlər ki, yəhudilər Ermənistan dövlətinin və erməni xalqının qatı düşmənləridir. Onlar ABŞ, Avropa və başqa ölkələrdə də sinaqoqları yandıracaqlarını, yəhudiləri məhv edəcəklərini bildirmişlər. Əlbəttə, bu vəhşiliklərin kökündə İsrail dövlətinin Azərbaycana dost olması, iki ölkə arasında əlaqələrin möhkəmlənməsi və yəhudi xalqının dövlətimizin ədalətli mübarizəsini dəstəkləməsi durur. Terrorçular heç bir beynəlxalq normaya və insanlığa sığmayan bəyanat vermişlər ki, dünya ölkələrində yaşayan yəhudilərə qarşı müharibə aparılacaq və heç bir yəhudi Avropaya, Amerikaya, Kanadaya, Gürcüstana gələrkən özünü təhlükəsiz hiss etməyəcək.

Ermənistanda antisemitizm meylləri gündən-günə güclənir və terrorçular dünya xalqlarına meydan oxuyurlar. Bu meyillər, sözsüz ki, bir çox xarici dövlətlərin dəstəyindən qaynaqlanır və şaxələnir. Fransanın bu dövlətlər arasında birincilik qazanması şübhəsizdir. Çünki təcavüzkar Fransanın Ermənistana, terrorçulara daimi yardım göstərməsi bu dövlətin müstəmləkəçilik siyasətindən irəli gəlir.

Fransa dövlətinin rəhbərləri, siyasi dairələri Azərbaycan torpaqlarını 30 il işğal altında saxlayan, şəhər və kəndlərimizi xaraba qoyan, bir milyondan çox insanı qaçqın vəziyyətinə salan Ermənistanı 30 il dəstəklədilər, bir dəfə də olsun Azərbaycanın haqlı mövqeyinə münasibət bildirmədilər və daim təcavüzkarın yanında olduqlarını nümayiş etdirdilər. Onlar hər vəchlə xalqımızın səsini batırmağa, düşmənə haqq qazandırmağa çalışdılar.

Bu gün də bu çirkin əməllərini davam etdirirlər. Fransa Ermənistandan daha çox Azərbaycana düşmən kəsilibdir. BMT Təhlükəsizlik Şurasında, beynəlxalq tədbirlərdə, görüşlərdə, müxtəlif ölkələrə səfərlərdə başda Fransa prezidenti Emmanuel Makron olmaqla, parlament üzvləri, hökumət nümayəndələri utanmadan Azərbaycanı təcavüzkar ölkə kimi qələmə verir, torpaqlarını erməni faşistlərindən azad edən dövlətimizin və xalqımızın adına olmazın böhtanlar, iftiralar söyləyirlər.

Fransa bildirir ki, "Ermənistanın sərhədləri bizim üçün müqəddəsdir". Fransanın xarici işlər naziri K.Kolonna İrəvana səfəri zamanı deyir ki, ölkəsi Ermənistana fransız silahlarının tədarükünə başlamaq imkanı verəcək. Fransa hərbi-texniki əməkdaşlıq haqqında saziş imzalamağa da rəsmi razılıq verib.

Bu ölkə Afrikada itirdiklərinin yerini Cənubi Qafqazda doldurmaq və regionda pozuculuq əməllərini davam etdirmək, məkrli siyasətini həyata keçirmək niyyətindədir. Ona görə də Ermənistanı silahlandırır, terrorçulara yardım edir, müharibələr üçün yeni planlar hazırlayır.

Ancaq Makron və əlaltıları dərk etmirlər ki, Azərbaycan Prezidenti İlham Əliyev onların çirkin, bəşəriyyətə zidd məqsədlərini yaxşı bilir və qarşısının alınması üçün tutarlı tədbirlər görür. 44 günlük müharibə, 23 saatlıq antiterror tədbirləri, ordumuzun gücü, xalqımızın birliyi və həmrəylikdən əldə olunan uğurlu nəticələr düşmənlərimizə lazımi dərs olmayıbsa, yeni dərslərin verilməsi istisna deyil. Azərbaycan təcavüzkarlar, terrorçular və onların havadarları qarşısında güclü dövlət kimi dayanıb. Dövlətimizin rəhbəri, ordumuz və xalqımız hər an sözünü deməyə qadirdir və bütün cəbhələrdə mübarizə aparmağı bacarır.

***Tahir RZAYEV,***
***Milli Məclisin Aqrar siyasət komitəsinin sədri***

# *Dövlət Komissiyası:* "Qarabağ müharibəsində itkin düşmüş Natiq Qasımovun Xocalı rayonunda dəfn edildiyi ehtimal olunur"

**Birinci Qarabağ müharibəsində itkin düşmüş Natiq Qasımovun Xocalı rayonu (keçmiş Əsgəran) ərazisində dəfn edildiyi ehtimal olunur.**





AZƏRTAC xəbər verir ki, bu barədə Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının yaydığı məlumatda bildirilib.

Qeyd edilib ki, Natiq Qasımov 1971-ci ildə Azərbaycan Respublikasının Gədəbəy rayonu, Kiçik Qaramurad kəndində anadan olub. Ermənistan silahlı birləşmələrinin Azərbaycanın suveren ərazilərinə hücumu ilə bağlı 1991-ci ildə könüllü olaraq Ağdam rayonunda təşkil edilmiş "Qaradağ şahinləri" taboruna yazılaraq Vətənin müdafiəsində iştirak edib. 1992-ci il 12 martda Xocalı rayonu, Pirlər (Xramort) kəndi istiqamətində gedən döyüşdə Ermənistan hərbçiləri tərəfindən əsir götürülüb.

Natiq Qasımov Xocalı rayonu, Pirlər kəndi yaxınlığında yüksəklikdə yerləşən Alban kilsəsi uğrunda döyüş zamanı 6 döyüş yoldaşı həlak olduqdan sonra 5 gün ac-susuz orada qalaraq təkbaşına döyüşüb. Gülləsi qurtardığından 6-cı gün, 1992-ci il 12 martda rusiyalı və italiyalı jurnalistlər - Konstantin Smirnov və Enriko Sarzinin şahidliyi ilə Ermənistan hərbçiləri tərəfindən əsir götürülüb. Onun əsir götürülməsi faktı Rusiyada nəşr edilən "Oqonyok" jurnalının 1992-ci il 14 və 15-ci nömrələrində "Strax" adlı məqalədə təsvir edilib.

Erməni girovluğundan azad edildikdən sonra Mingəçevir şəhərində yerləşən "Kür" avarçəkmə bazasında məskunlaşmış Xocalı şəhər sakini Cəfərov Cəfər Məhəmməd oğlunun ifadəsinə əsasən, Xocalı şəhəri Ermənistan silahlı birləşmələri tərəfindən işğal olunan gün digər Xocalı sakinləri ilə birlikdə o da girov götürülmüş və işğal edilmiş Əsgəran Rayon Polis Şöbəsinin təcridxanasına aparılmışdı. Bir müddət sonra Ermənistan hərbçiləri onu xarici jurnalistlə birlikdə zirehli döyüş maşınına oturdaraq azərbaycanlılara xəbərdarlıq etmək üçün Pirlər kəndinə aparıblar.

Ermənistan hərbçiləri orada Cəfər Cəfərovu Alban kilsəsində mövqe tutmuş Azərbaycan hərbçiləri ilə danışığa göndərmiş, əgər təslim olmasalar, girov götürülmüş Xocalı şəhər sakinlərini sıraya düzüb güllələyəcəklərini bildirmişlər.

Cəfər Cəfərov sürünə-sürünə kilsəyə getmişdi. Lakin o, kilsədə yalnız bir Azərbaycan əsgəri, Qasımov Natiq Səlim oğlu ilə rastlaşmışdı. Natiq Qasımov 5 gün ərzində təkbaşına və ac-susuz döyüşdüyü üçün artıq taqətdən düşübmüş.

Natiq Qsımov Cəfər Cəfərovun: "Axı imkanın var idi, nə üçün geri çəkilmədin?" - sualına: "Komandirim mənə mövqeni tərk etməməyi tapşırmışdır. Bir də ki, yuxarıda dalğalanan Azərbaycan bayrağını burada qoyub necə gedə bilərdim?" - cavabını vermiş və binanın üzərindəki Azərbaycan bayrağını göstərmişdi.

Cəfər Cəfərovun ifadəsinə görə, o, Ermənistan hərbçilərinin şərtini Natiq Qasımova çatdırmış, bununla yanaşı, təslim olmamağı və imkan varsa, geri çəkilməyi məsləhət görmüşdü. Lakin Natiq Qasımov bir canı üçün Xocalı sakinlərinin həlak olmasına yol verməyəcəyini bildirmiş və binanın üzərində asılmış Azərbaycan bayrağını əlinə götürərək Ermənistan hərbçilərinə təslim olmuşdu.

Etibarlı mənbələrdən əldə edilmiş məlumata əsasən, bu qorxmaz Azərbaycan əsgərinin qəhrəmanlığı və şücaəti düşmən hərbçiləri arasında vahimə və psixoloji gərginlik yaratdığı üçün səhra komandiri Vitali Balasanyan Natiq Qasımova erməni əsgərlərin qarşısında müharibə qanunlarına zidd olaraq dəfələrlə ağır və dəhşətli işgəncələr verərək onu qətlə yetirmişdi.

Vitali Balasanyan 1988-ci ildən etibarən Azərbaycan Respublikasının keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin ərazisində separatizmin qızışdırılmasında və terror aktlarının təşkilində, etnik təmizləmənin aparılmasında, Xocalı soyqırımının törədilməsində yaxından iştirak etmiş, çoxsaylı müharibə cinayətləri törətmişdi. Sonradan Ermənistan tərəfindən işğal edilmiş Azərbaycan ərazilərində yaradılmış separatçı rejimin "müdafiə nazirinin müavini" və "təhlükəsizlik şurasının rəhbəri" olmuşdu.

Məlum olduğu kimi, Ermənistan tərəfi humanitar hüquq normalarının ziddinə olaraq I Qarabağ müharibəsində itkin düşmüş bütün Azərbaycan vətəndaşlarının, o cümlədən Natiq Qasımovun dəfn yeri barədə məlumatları gizlətmiş və bu gün də bu qeyri-insani əməlini davam etdirir.

Natiq Qasımov hazırda Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasında (Dövlət Komissiyası) I Qarabağ müharibəsində itkin düşmüş şəxs kimi qeydiyyatdadır.

Dövlət Komissiyası I Qarabağ müharibəsində itkin düşmüş bütün Azərbaycan vətəndaşlarının, həmçinin Natiq Qasımovun axtarışlarını davam etdirir. Təəssüf ki, Natiq Qasımovun dəfn yeri barədə Dövlət Komissiyasında məlumat yoxdur. Ancaq ehtimal etmək olar ki, onun meyiti Xocalı rayonu (keçmiş Əsgəran) ərazisində dəfn edilib. Dövlət Komissiyası işğaldan azad edilmiş bütün ərazilərimizdə, həmçinin Xocalı rayonu ərazisində I Qarabağ müharibəsində itkin düşmüş şəxslərə aid ehtimal edilən məzar yerlərində qazıntı və ekshumasiya işlərini aparacaq.

# Erməni faşistləri "demokrat" qiyafəsində

**Faşistlərin nə vaxt və hansı dövlətdə yaşamasından asılı olmayaraq, oxşar cəhətləri kifayət qədərdir. Əsas məsələ o deyil ki, bu, erməni faşizmidir, yoxsa alman. Ən əcaibi odur ki, belə sistemlərdə hamı özünü demokrat sayır. Məsələn, Hitler demokratların belində onların atası kimi hakimyyətə gəlmədimi?! Yaxud ondan əvvəl Mussolini demokrat kimi kükrəyib, faşist kimi İtaliyanın qabırğalarından asılmadımı?!**

Amma erməni faşistləri onların hamısından hiyləgər çıxdılar və ona görə də hətta yüz il sonra sələflərindən fərqli olaraq bütün dünya üçün "demokrat" cildində qala bildilər, baxmayaraq ki, faşist ideologiyasından əl çəkməmişdilər. Beynəlxalq münasibətlər sistemində məşhur ekspertlərdən sayılan yəhudi Arye Qut babası barəsində yazırdı: "Babam Holokost genosidini yaşayan insanlardan biridir. İlk dəfə Holokost haqqında ondan eşitmişəm. Babam o genosid zamanı bütün ailə üzvlərini itirmişdi". Bu söhbəti İsrail qəzetində açan ekspert babası haqqında qətiyyən danışmaq niyyətində deyildi. Ona qəribə gələn o idi ki, Nikol Paşinyan da adaşı olan babasının şəklini qəzetdə dərc edərək altından yazmışdır: "138-ci atıcı diviziyasının 554-cü atıcı polkunda döyüşüb". Göründüyü kimi, Ermənistanın indiki baş naziri babasının İkinci Dünya müharibəsi zamanı faşistlərlə əməkdaşlığından xüsusi zövq alır.

İndi nəsə Ermənistana qıdıq verən bir dəb düşüb: ən qatı faşist də özünü cəmiyyətə demokrat kimi sırımaqdan xüsusi zövq alır. Bu sırada Paşinyan niyə də faşist babasının bioqrafiyasındakı dəlmə-dəlikləri suvayıb ondan "demokrat" qayırmasın?! Əgər bu bir dəbdirsə, Paşinyan da məcburdur ki, onunla ayaqlaşsın.

Amma bu, yeganə hal deyil. Erməni faşistləri "Daşnaksütyun" partiyasının ilk terror dəstələrini yaratdıqları gündən özlərini külləmə "demokrat" elan ediblər. Bütün nəslinin "demokrat" olduğuna ürəkdən inanan Paşinyan da Qarabağdakı Azərbaycan torpağında öz generalları ilə qucaqlaşıb Yallı gedəndə zərrəcə şübhə etmirdi ki, "demokrat"dır. Bəla ondadır ki, belələri bu gün dünyada faşist əxlaqı ilə zəhərlənən tək "demokrat"lar deyillər. Son hadisələr göstərir ki, onlardan, məsələn, Parisdə də var. Faşist ideologiyasına yoluxanlarla qucaqlaşmağa başqa nə ad vermək olar ki?!

Arye Qut da elə ondan yazır ki, Ermənistanda dövlət səviyyəsində faşist ideologiyası təbliğ edilir. Alman faşizminin yüz il əvvəlki ideologiyasından bu gün erməni faşistləri məhəbbətlə qidalanırlar: "Ən dəhşətlisi odur ki, faşist ideologiyası njdeizm adı altında Ermənistanda məktəb proqramlarına daxil edilir. Yəhudi xalqı İkinci Dünya müharibəsində 20 minlik erməni legionunun törətdiyi qəddarlıqları unutmayacaq. Bu vəhşilikləri təsdiq edən arxiv sənədləri mövcuddur".

Erməni separatçıları faşizm sevdasında hamıdan irəlidədirlər. Və hətta Qarabağda qollarına qandal vurulan erməni generallarının həbsi də onlara "demokratiyaya hücum" təsiri bağışlayır. Xatırladaq ki, DTX bu günə qədər Qarabağda 8 nəfər terror başçısını qandallayıb, illər boyu həsrətini çəkdikləri şəhərə - Bakıya "çaylamağa" gətirib. Zavallılar 30 il idi ki, bu arzu ilə yaşayırdılar və axır ki istədiklərinə nail oldular. Onların sağ əli çöldə qalan terrorçuların başına...

Sözsüz ki, belə də olacaq. Çünki hadisələrin məntiqi davamı onu göstərir ki, erməni cinayətkarların həbsləri davam edəcək, cinayətkarlar mütləq cəzalarını alacaqlar.

Bəs, Ermənistanın böyük "bacısı" ilə nə edəsən? Fransanın xarici işlər naziri Ketrin Kolonna "məcburi köçkünlər" məsələsini daha da qızışdırmaq üçün Ermənistan hökumətini erməni əhalisinin Qarabağa qayıtmasının mümkün qədər qarşısını almağa çağırır. Fransız nazir Paşinyana bu məqsədlə Aİ-dən, xüsusən də Fransadan əlavə maliyyə dəstəyi vəd edib. Yazıq Paşinyan da Qarabağ ermənilərinin Ermənistanda saxlanılması ideyası ilə, həvəs göstərməsə də, razılaşıb. Amma Ermənistandakı daşnaklar Ermənistan hakimiyyətinə təzyiq platformasını bərpa etmək üçün taktikanı dəyişmək və ermənilərin geri qayıtmasına şərait yaratmaq barədə ciddi düşünürlər. Və heç şübhə yoxdur ki, Qarabağın ermənisilli sakinlərinin taleyi ilə oynayan həm Fransa siyasətçilərini, həm də daşnakları "qayğılandıran" onların sadə insanlara humanist münasibətləri yox, bu köç üzərində anti-Azərbaycan təbliğatını körükləməkdir. Bu, faşizm deyil, bəs nədir?

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***



# Yeni reallıqların tələbi

## Azərbaycanın iştirak etmədiyi tədbirlərdə belə ərazi bütövlüyümüzə hörmətlə yanaşılması İlham Əliyevin yaratdığı reallığın göstəricisidir

**Oktyabrın 5-də İspaniyanın Qranada şəhərində Avropa Siyasi Birliyinin növbəti sammiti çərçivəsində Avropa İttifaqı Şurasının vasitəçiliyi ilə Azərbaycanın iştirakı olmadan keçirilən qeyri-rəsmi müzakirələrdə ölkəmizin ərazi bütövlüyünün qorunmasının vacibliyi qeyd edilib.**



Bu, Prezident İlham Əliyevin liderliyi ilə 44 günlük Vətən müharibəsində və antiterror tədbirləri nəticəsində yaranmış yeni reallıqların ifadəsidir.

Məsələ ilə bağlı "Azərbaycan" qəzetinə açıqlama verən Milli Məclisin deputatı Bəhruz Məhərrəmov deyib ki, Qranadada Azərbaycanın iştirakı olmadan keçirilən müzakirələr və yekunda ərazi bütövlüyümüzü ehtiva edən bəyanatın qəbul edilməsi görüş iştirakçılarının beynəlxalq hüquqa hörmətinin ifadəsi yox, Azərbaycan Prezidentinin yaratdığı reallığın göstəricisidir.

"Konstitusiyanın 10-cu maddəsinə əsasən, Azərbaycan Respublikası başqa dövlətlərlə münasibətlərini hamılıqla qəbul edilmiş beynəlxalq hüququn normalarında nəzərdə tutulan prinsiplər əsasında qurur. Lakin Azərbaycana münasibətdə beynəlxalq hüququn prinsiplərinə zidd və açıq formada qərəzli davranışlar sərgiləndiyinin də şahidi olmuşuq. Dövlətlərin ərazi bütövlüyü, sərhəd toxunulmazlığı, daxili işlərinə qarışmağın yolverilməzliyi prinsiplərinin faktiki olaraq işğal faktoru fonunda arxa plana keçirildiyini müşahidə edirik. Bizə münasibətdə BMT TŞ-nin qətnamələri başda olmaqla, çoxsaylı beynəlxalq sənədlərlə kağız parçası kimi davranılıb və icrasız qalıb", - deyə deputat qeyd edib.

Bəhruz Məhərrəmov vurğulayıb ki, ölkəmizdə beynəlxalq hüququn aliliyi Prezident İlham Əliyevin qətiyyəti ilə təmin edilib. Planlı, ardıcıl və beynəlxalq hüquqa uyğun addımlarla, o cümlədən müəyyən məqamlarda BMT Nizamnaməsinin 51-ci maddəsində təsbit olunan özünümüdafiə hüququ çərçivəsində Azərbaycan güc tətbiqi ilə ərazi bütövlüyünü təmin edib. Ermənistan da fakt qarşısında qalaraq Azərbaycanın ərazi bütövlüyünü konkret rəqəmlə ifadə etməli olub.



Deputat bildirib ki, Azərbaycanla Ermənistan arasında prinsipial narazılığın kökündə dayanan separatizm məsələsinin, habelə Ermənistan ordusunun hissələrinin Azərbaycan ərazisindən çıxarılmasının cəmi 23 saat ərzində antiterror tədbirləri ilə təmin olunması tamamilə yeni reallıq yaradıb: "Dövlət başçısı beynəlxalq müstəvidə elə bir geosiyasi konfiqurasiyanın formalaşmasına nail olub ki, artıq bu reallıqları qəbul etməmək beynəlxalq hüququ rədd etmək anlamına gəlir. Bir zamanlar "Qarabağ Ermənistandır" deyən Paşinyanın artıq Azərbaycanın iştirak etmədiyi tədbirlərdə belə ölkəmizin ərazi bütövlüyünə hörmətlə yanaşması, beynəlxalq hüququn ərazi bütövlüyü prinsipinə "sədaqət" nümayiş etdirməsi birbaşa Prezident İlham Əliyevin yaratdığı konfiqurasiyanın tələbidir".

B.Məhərrəmov son günlər Fransa, Almaniya və Avropa İttifaqının beynəlxalq hüququn prinsiplərinə zidd və açıq formada qərəzli davranışlar sərgiləmələrinə, riyakar addımlar atmalarına da diqqət çəkib. Lakin Azərbaycanın artan güc və imkanları, o cümlədən Prezident İlham Əliyevin qlobal miqyaslı lider kimi şəxsi nüfuzu bütün bu kimi riyakar cəhdlərin əməli tədbirə çevrilmədən sadəcə ritorika kimi qalmasını təmin edir.

***Nəzrin QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# Rusiya sülhməramlıları Əsgəranda daha bir müşahidə məntəqəsini bağlayıblar

**Rusiya sülhməramlıları kontingenti Əsgəranda müşahidə məntəqələrini bağlayıblar.**

AZƏRTAC xəbər verir ki, bu barədə Rusiya Müdafiə Nazirliyinin məlumat bülletenində bildirilib.

Qeyd olunub ki, Rusiya sülhməramlıları tərəfindən Qarabağdakı silahlı birləşmələrin anbarlarında olan silahların, hərbi texnikanın, atıcı silahların və döyüş sursatlarının hesablanması başa çatıb. Oktyabrın 7-nə olan məlumata görə, 92 ədəd zirehli texnika, 142 ədəd avtomobil texnikası, 124 ədəd hava hücumundan müdafiə texnikası, 112 ədəd səhra artilleriya qurğusu, YARS və minaatan, 1 ədəd PUA, 7 min ədəddən çox atıcı və tank əleyhinə silah, təxminən 66,1 milyon sursat təhvil verilib.

Rusiya Müdafiə Nazirliyinin bülletenində həmçinin deyilir ki, silah, hərbi texnika və sursat anbarlarının mühafizəsi Rusiya-Azərbaycan birgə mühafizə postları tərəfindən təşkil edilib.

# 8-9 oktyabr 2020-ci il

## Azərbaycan: ZƏFƏR gündəliyi



Səhər saatlarından başlayaraq Ermənistan silahlı qüvvələri Goranboy, Tərtər, Ağdam rayonlarının kəndlərini artilleriya atəşinə tuturlar. Ölən və yaralananlar var.

Ermənistan silahlı qüvvələri Bərdə və Ağcabədi rayonlarının kəndlərini atəşə tutur.

Bərdə rayonu ərazisinə "Toçka-U" taktiki raket kompleksindən atəş açılır.

❖❖❖

Əks-hücum əməliyyatları zamanı mənəvi-psixoloji təminat tədbirləri çərçivəsində keçirilən təbliğat-təşviqat işi davam edir.

Ali Baş Komandanın müraciətləri, təbrikləri və ürək sözləri, həmçinin hərbi komandanlığın müraciətləri, əldə edilən qələbələr barədə məlumatlar şəxsi heyətə və mülki sakinlərə operativ şəkildə çatdırılır.



Təşviqat tədbirlərinin məqsədi ordu-xalq birliyinin daha da möhkəmləndirilməsi, Silahlı Qüvvələrimizin qüdrətinin və döyüşlərdəki uğurlarının işıqlandırılması, eləcə də savaşda rəşadət göstərən şəxsi heyətin qələbə əzminin təbliğ edilməsidir.

Şəxsi heyət və cəbhəboyu zonada yaşayan dinc sakinlər tərəfindən ruh yüksəkliyi ilə qarşılanan tədbirlər səyyar səsyayıcı stansiyalar vasitəsilə yayımlanan hərbi-vətənpərvərlik mahnı və marşları ilə müşayiət edilir.

❖❖❖

Gecə döyüşləri zamanı Ermənistan silahlı qüvvələrinin hərbi hissə qərargahına, istehkamlarına və silah-sursat anbarlarına artilleriya zərbələri endirilir.

❖❖❖

Gündüz saatlarında yerdəyişməyə cəhd göstərən düşmənin döyüş texnikası artilleriya atəşi ilə məhv olunur.

Düşmənin hərbi kolonu darmadağın edilir.

❖❖❖

Füzuli rayonunun işğaldan azad olunan Horadiz kəndində erməni hərbçilərin qaçarkən tərk etdiyi zirehli texnikalar bölmələrimiz tərəfindən ələ keçirilir.

❖❖❖

Ermənistan silahlı qüvvələri Goranboy, Tərtər və Ağdam rayonlarının kəndlərini artilleriya atəşinə tutur.

Ordumuzun bölmələri tərəfindən düşmənə qarşı adekvat tədbirlər görülür.

❖❖❖

Azərbaycan Ordusunun bölmələri düşmənin zirehli texnikasını məhv etməyə davam edir.

❖❖❖

Füzuli rayonunun ərazilərinə ağ fosforlu tüstülü mərmi atılır. Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyin (ANAMA) xüsusi mobil əməliyyat qruplarının Füzuli rayonu ərazisində apardıqları əməliyyat-axtarış tədbirləri zamanı Ermənistan silahlı qüvvələri tərəfindən atılmış 122 millimetrlik tüstülü top mərmisi (D-4) aşkarlanır.

Mərminin tərkibində 3,6 kiloqram ağ fosfor (P-4) aşkarlanır. Bu cür mərmilərin mülki əhaliyə və obyektlərə qarşı istifadə edilməsi beynəlxalq humanitar hüququn tələblərinə və prinsiplərinə görə qadağandır.

❖❖❖



Günün ikinci yarısından başlayaraq bütün cəbhəboyu gərgin döyüşlər davam edir.

Azərbaycan Ordusunun bölmələri mühüm istiqamətlərdə düşmənə atəş zərbələri endirərək onun hərəkət fəaliyyətini tam məhdudlaşdırır və aktivliyinin qarşısını qətiyyətlə alır.

Həyata keçirilən hərbi əməliyyatlar zamanı Azərbaycan Ordusunun atəş zərbəsi nəticəsində Ermənistan silahlı qüvvələrinin 5-ci dağıdıcı alayının qərargah binası dağıdılır. Nəticədə binada olan 10-cu dağıdıcı diviziyanın qərargah rəisi polkovnik Samvel Qriqoryan ağır yaralanır, alayın artilleriya rəisi polkovnik-leytenant Arman Dermeyan və xeyli sayda hərbi qulluqçu məhv edilir.

Azərbaycan Ordusunun Xankəndi şəhərinə endirdiyi atəş zərbələrindən ağır itkilərə məruz qalan Ermənistan silahlı qüvvələrinin burada yerləşən hərbi hissələrinin şəxsi heyəti təxliyə edilir. Xankəndidə yerləşən hərbi hissələrdən birinin sığınacağına endirilən artilleriya atəşi nəticəsində xeyli sayda hərbi qulluqçu məhv edilir və yaralanır.

❖❖❖

Gün ərzində ümumilikdə düşmənin 13 ədəd T-72 tankı, 2 ədəd PDM-i, 4 ədəd BM-21 "Qrad" yaylım atəşli reaktiv sistemi, 2 ədəd 2S3 "Akasiya" özüyeriyən artilleriya qurğusu, 3 ədəd D-30 haubitsa topu, 2 ədəd radar sistemi və xeyli sayda avtomobil texnikası dəqiq atəşlə məhv edilib və sıradan çıxarılıb.



Cəbhənin istiqamətlərindən birində həyata keçirilən əməliyyat nəticəsində Ermənistan silahlı qüvvələrinin 49-cu tank briqadasına məxsus 6 ədəd T-72 tankı tam işlək vəziyyətdə ələ keçirilib.

❖❖❖

**Oktyabrın 9-da** bütün cəbhə boyu gərgin döyüşlər davam edir.

Azərbaycan Ordusunun bölmələri mühüm istiqamətlərdə düşmənə atəş zərbələri endirərək onun hərəkət fəaliyyətini tam məhdudlaşdırıb və aktivliyinin qarşısını qətiyyətlə alıb. Görülən tədbirlər nəticəsində düşmən qoşunları arasında idarəetmə və qarşılıqlı əlaqə itib, bölmələri arasında nizamsızlıq yaranıb, şəxsi heyətinin intizamı pozulub, döyüş mövqelərinin tərk edilməsi kütləvi hal alıb.

❖❖❖

Düşmən Goranboy, Tərtər, Ağdam, Bərdə, Ağcabədi rayonlarının ərazilərini intensiv atəşə tutur.

❖❖❖

Azərbaycan Ordusunun bölmələri mühüm istiqamətlərdə düşmənə atəş zərbələri endirərək onun xeyli sayda hərbi texnikasını məhv edir.

Düşmən tərəfindən döyüş meydanında tərk edilən zirehli texnikalar isə bölmələrimiz tərəfindən tam işlək vəziyyətdə ələ keçirilir.

Ordumuzun düşmənin hərbi hədəflərinə və hərbi texnikasına dəqiq zərbələri davam edir.

❖❖❖

Döyüş əməliyyatları zamanı düşmənin atıb qaçdığı hərbi texnikalar Azərbaycan Ordusunun hərbi texnikasının rəngində rənglənir.

❖❖❖

Ermənistan ərazisindən Mingəçevir istiqamətinə atılan ballistik hədəf Azərbaycan HHM sistemləri tərəfindən aşkar edilərək 20 kilometrdən artıq hündürlükdə məhv edilir.

❖❖❖

Düşmənin radioelektron mübarizə vasitələri məhv edilir.

❖❖❖

Prezident İlham Əliyev xalqa müraciət edərək növbəti müjdələrini verir. Ali Baş Komandan bildirir ki, müzəffər Azərbaycan Ordusu bir neçə yaşayış məntəqəsini işğaldan azad edib - Hadrut qəsəbəsi, Çaylı kəndi, Yuxarı Güzlək kəndi, Gorazıllı kəndi, Qışlaq kəndi, Qaracallı kəndi, Əfəndilər kəndi, Süleymanlı kəndi, Sur kəndi.



İlham Əliyev bu kəndlərin və Hadrut qəsəbəsinin işğaldan azad edilməsini tarixi qələbə adlandırır, həmçinin Azərbaycan Ordusu tərəfindən məhv edilmiş və hərbi qənimət kimi götürülmüş Ermənistanın hərbi texnikasının siyahısını açıqlayır - 16 komanda məntəqəsi, 196 tank, 38 BM-21, 1 "Uraqan", 10 özüyeriyən artilleriya qurğusu - onlardan 8-i "Akasiya", 2-si "Qvozdika", 36 piyadaların döyüş maşını, 24 artilleriya batareyası, 2 RM və ya hava hücumuna qarşı müdafiə vasitəsi, 2 "S-300" kompleksinin buraxıcı qurğusu, 25 OSA zenit-raket kompleksi, 2 KUB zenit-raket kompleksi, 4 "Repelend" radio-texniki maneə vasitəsi, 136 top, 56 minaatan, 1 TOS-1A odsaçan sursatı, 2 radiolakasiya stansiyası, 1 "Kalçuqa" anteni.

Qənimət kimi götürülmüş hərbi texnikalar - 18 tank, 4 top, 22 piyadaların döyüş maşını, 12 minaatan, 4 UAZ maşını, 1 ekskavator, 27 "İqla" kompleksi, 1 ZİL maşını, 9 QAZ maşını.

Ali Baş Komandan bir daha qətiyyətlə vurğulayır ki, artıq status-kvo deyilən məsələ və təmas xətti yoxdur. Azərbaycan əsgərinin qabağında heç kim heç nə edə bilməz: "Biz torpaqlarımızı azad edəcəyik, ərazi bütövlüyümüzü bərpa edəcəyik! Düşməni ondan sonra da qovacağıq".

❖❖❖

Fransa Prezidenti Emmanuel Makron Azərbaycan Prezidenti İlham Əliyevə telefonla zəng edir.

Dövlət başçıları Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı yaranmış vəziyyəti müzakirə edirlər.

❖❖❖

Prezident İlham Əliyevin "Sky News" və "CNN International" televiziya kanallarında müsahibələri yayımlanır.




İlham Əliyev bir daha Azərbaycana qarşı səsləndirilən ittihamlara faktlarla, sübutlarla cavab verərək deyir ki, həmsədrlərin 28 illik "vasitəçilik" missiyası bir nəticə vermədi. ATƏT-in Minsk qrupunun 1992-ci ildən bu yana passiv formada "fəaliyyət"i bu gün baş verənlərə gətirib çıxardı. Bu vasitəçilik Ermənistanı onlara məxsus olmayan əraziləri tərk etməyə məcbur etmək üçün yetərli olmadı. Azərbaycan məsələni bu gün özü həll edir.

Prezident həmçinin müharibənin hansı şərtlər əsasında dayandırılmasına da aydınlıq gətirərək dedi ki, danışıqlar münaqişənin siyasi həllinə və işğal olunmuş ərazilərin boşaldılmasına gətirib çıxarmalıdır: "Biz sülh yolu ilə həll istəyirik, amma həll. Biz həll istəyirik, imitasiya yox, daha 30 il ərzində boş sözləri yox, praktiki addımları, vaxt cədvəlini, insanlarımızın evlərinə nə vaxt qayıdacağını, onlar üçün təhlükəsizlik zəmanətinin nədən ibarət olacağını və bizim necə barışacağımızı bilmək istəyirik. İki millət barışmalıdır. Biz qonşuyuq. Biz əbədi olaraq düşmənçilik şəraitində yaşaya bilmərik. Bu, dayandırılmalıdır. Lakin tarixi həqiqət və beynəlxalq hüquq əsasında dayandırılmalıdır".

❖❖❖

Saat 20:00 radələrində Ermənistan-Azərbaycan dövlət sərhədinin Daşkəsən sahəsində yerləşən Azərbaycan Ordusunun müdafiə mövqelərindən Ermənistan ərazisində atışma səsləri və partlayış müşahidə olunur.



Belə ki, Ermənistanın Vardenis rayonunun Günəşli və Ağyoxuş kəndlərində yerləşən düşmən mövqelərindəki hərbi qulluqçular əvvəlcə müxtəlif atıcı silahlardan bir-birinə doğru atəş açmışlar. Bir az sonra isə Günəşli kəndində partlayış baş verir, yanğın başlayır.

Baş verən insidentə Azərbaycan Ordusu bölmələrinin heç bir aidiyyəti yoxdur. Bu təxribat erməni xalqı və beynəlxalq aləmin diqqətini Ermənistan rəhbərliyinin hərbi və siyasi meydanda uğradığı iflasdan yayındırmaq məqsədi daşıyır.

*R.BAXŞƏLİYEV,*
*"Azərbaycan"*

## Ermənistan: məğlubiyyətin xronikası



Vətən müharibəsi göstərdi ki, Azərbaycan cəmiyyətinin vətənpərvərliyi, insanların döyüş əzmi olduqca yüksəkdir. Humanitar məqsədlərlə elan olunan atəşkəsdən sonra Ermənistanda tamamilə fərqli mənzərə müşahidə olunur: insanlar xof və ümidsizlik içindədir, sabaha inamları qalmayıb.

Ermənilər mətbuata açıqlamalarında və sosial şəbəkələrdəki paylaşımlarında Azərbaycan Ordusunun qələbəsindən sonra vahiməyə düşdüklərini gizlətmir, bununla əlaqədar baş nazir Paşinyanı günahlandırırlar. Onlar Azərbaycanın qalib mövqedə olduğunu, Dağlıq Qarabağı tezliklə geri alacağını etiraf edirlər.

Mediada və sosial şəbəkələrdə şənbə və bazar günləri erməni istifadəçiləri tərəfindən yer alan maraqlı status və şərhlərdən bəzilərini diqqətinizə çatdırırıq.

❖❖❖

"4rd.am" saytının Qarabağa ezam olunmuş xüsusi müxbiri yazır ki, Xankəndidə əhalinin əsəbləri mövcud çətinliklərə dözmür. Heç də hər kəsin Ermənistana və ya xaricə getmək üçün maliyyə imkanı yoxdur. Ona görə də könüllü surətdə taleyi ilə barışanların sayı çoxalır. Vurğulanır ki, Ermənistandakı bütün bu bəlaların kökündə isə mövcud rejimin fəaliyyətsizliyi dayanır.

Sayt Xankəndidə qalan azsaylı sakinlər arasında sosioloji sorğu da keçirib. "Qarabağda gedən döyüşlərin Ermənistan üçün ziyanı nə ola bilər və ya humanitar atəşkəs rejimini necə qiymətləndirirsiniz?" sorğusunda Samvel Baqdasaryanın cavabı daha çox diqqət çəkib, sosial şəbəkələrdə bəyənmə toplayıb: "Zirzəmilərdə yatmaqdan artıq xəstəlik tapmışıq. Hər gün şəhərin sakinləri azalmaqdadır. Bilmirik ki, sabaha sağ çıxacağıq, ya yox. Azərbaycanla Ermənistanı müqayisə etmək düzgün olmazdı. ABŞ, Avropa İlham Əliyevdən neft, qaz istəyir. İlham Əliyev də onlara neft, qaz verir. Bəs Azərbaycan rəhbəri onlardan nə istəyir: yalnız Qarabağı. Belə çıxır ki, onlar da İlham Əliyevə artıq borclu qalmırlar. Azərbaycan Prezidentinin dediyi ilə oturub-dururlar. Əlvida, Qarabağ".



❖❖❖

"İravnuk" qəzeti Xankəndidən hazırladığı reportajda şəhərin getdikcə ağır vəziyyətə düşdüyünü yazır. Raffi Oskanyan adlı tarixçi müəllimlə həmsöhbət olan müxbir davam edən müharibəyə və humanitar atəşkəs rejiminə münasibət bildirib: "Bu gün dünya Azərbaycanın haqlı mövqeyindən danışır. Bütün dünya Paşinyanın çıxışından yox, İlham Əliyevdən danışır. Görəsən, bizim nə vaxt normal bir rəhbərimiz olacaq? İtirilən ərazilərin hesabatını kim verəcək? İlham Əliyev indiyəcən sülhdən danışa-danışa artıq Qarabağı bizdən geri almağa başlayıb. İndi isə açıq şəkildə müharibə davam edir, çox sərt danışırsa, demək, onun hədəfi Yerevandır. Bu gedişlə İlham Əliyevin Xankəndidə, paytaxt Yerevanda qarşısına çıxacaq bir adam tapılmayacaq. Mən özüm də daxil olmaqla on minlərlə insan Qarabağı tərk etməkdədir".

❖❖❖

"Joxovurd" qəzeti yazır ki, cəmiyyət Dağlıq Qarabağ münaqişəsinin həllinin uzanmasından, bununla bağlı Ermənistanın üzləşdiyi çoxsaylı problemlərdən narazılıq edir. Artıq ermənilər davam edən döyüşlərdən sonra həm hərbi, həm də diplomatiya cəbhəsində Azərbaycana daha böyük fərqlə uduzmağın gerçəkliyini anlamağa başlayıblar.

Xankəndidə yaşayan Anna Stepanyan adlı sakinin "Nə vaxta qədər belə davam edəcək? Uşaqlarımız boş yerə həlak olur" fikirlərinin yer aldığı məqalədə iki dövlət başçısının müqayisəsi aparılır və sosial şəbəkələrdə daha çox müzakirə olunur. Vurğulanır ki, İlham Əliyevin Azərbaycan üçün nələr etdiyi göz qabağındadır. Ermənistan rəhbərliyi isə yalnız öz maraqlarını güdür, onlar üçün dövlətin və xalqın mənafeləri yoxdur: "Dörd il əvvəl yaşanılan kabusu Xankəndi, Qarabağ yenidən yaşayır. Paşinyan sevinir ki, nə yaxşı atəşkəs rejimi oldu. Son 10 gün ərzində itirilən torpaqlardan, məğlubiyyətdən sonra Paşinyan hansı üzlə xalqın qarşısına çıxır? Bəs sabah Azərbaycan əsgəri Yerevana girsə, nə edəcəyik?"



❖❖❖

Samvel Qriqoryan adlı istifadəçi isə tviterdə yazır: "Paşinyanın rəhbərliyi altında indiyədək Ermənistan hər sahədə məğlub olub, vətəndaşlarımız vətənlərindən qaçırlar. Onun rəhbərliyi altında bizi parlaq gələcək yox, tam məhvolma gözləyir. Paşinyan bizi məğlub etdi. İndi rədd olmalıdır!"



Edqar Qasparyan adlı biri feysbukda hakim "Mənim addımım" blokundan olan istifadəçilərin daha çox rəy bildirdiyi qrupda maraqlı bir şərhlə diqqət çəkib və bununla da onların kəskin tənqidi ilə üzləşib. O yazıb: "İki gündür statuslarınıza baxıram, atəşkəs rejiminə sevinirsiniz. Bu qədər yalana heç özünüzün də inanmadığınızı düşünürəm (gülüş işarəsi). Gəlin həqiqəti danmayaq. Azərbaycan davam edən müharibədə neçə rayonu bizdən aldı. Paşinyanın Qarabağ məsələsində xalqı aldatmaq cəhdi isə günlər ötdükcə daha da iflasa uğramaqdadır. İlham Əliyev orduya milyardlarla dollar vəsait ayırır. Bizdəki hakimiyyət isə dövləti talamaqla ancaq cibini doldurur".



Sonda Xarput Mxıtaryan adlı istifadəçinin feysbukda paylaşdığı statusu vurğulamaq yerinə düşərdi: "Paşinyan son iki ildə Ermənistanı məhv edib. Satılmayan torpaq, zavod, obyekt qalmayıb. O, hər dəfə Rusiyaya, Avropaya, xaricə gedəndə qorxuram ki, Yerevana qayıtmaya, çünki burda daha gəlir qazanacağı bir şey qalmayıb. Əziz atəşkəs rejiminə sevinən ermənilər, mənə gülməyin. Bir gün bu xəbərlə sabahımız açıla bilər: Paşinyan Ermənistandan qaçdı! Yəqin axşamın da xəbəri belə olacaq: Azərbaycan əsgəri sərhədi keçib Yerevana doğru yürüyür".

Əlavə şərhə ehtiyac yoxdur...

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*

# "Azərbaycan "yaşıl hidrogen" sahəsində də regional lider və Aİ-nin etibarlı tərəfdaşı ola bilər"

**Xəbər verildiyi kimi, Avropa Yenidənqurma və İnkişaf Bankı (AYİB) layihələrin hazırlanması üzrə texniki yardım təmin etməklə Azərbaycanın "yaşıl hidrogen" istehsalında təşəbbüslərini dəstəkləməyə hazır olduğunu bəyan edib. AYİB bildirib ki, o, artıq Azərbaycanı ölkədəki aşağı karbonlu hidrogen potensialının ilkin qiymətləndirilməsində dəstəkləyib.**



Beynəlxalq məsləhətçi tərəfindən hazırlanmış ilkin hesabat 2023-cü ilin avqustunda dərc olunub. Hesabata görə, Azərbaycan yerli səviyyədə dekarbonizasiyanı dəstəkləmək üçün bərpaolunan hidrogen istehsal etməyə artıqlaması ilə qadirdir və Avropa İttifaqı kimi tələbatın yüksək olduğu regionlara rəqabətqabiliyyətli qiymətlə bərpaolunan yanacaq tədarük edə bilər.

Bəs "yaşıl hidrogen" nədir? Məlumdur ki, dünya əhalisi durmadan artır. Bu isə yanacaq resurslarına tələbatı yüksəldir. Nəticədə bu tələbatın ödənilməsi müasir dövrün ən mürəkkəb problemlərindən birinə çevrilir. Məsələ bundadır ki, hazırda istifadə olunan yanacaq resurslarının əsas mənbələri tükənən mənbələrdir, üstəlik də bu resurslar qeyri-bərabər bölünüb. Elə ölkələr var ki, mühüm enerji resurslarına çıxışdan məhrumdurlar. Ona görə də getdikcə enerji uğrunda mübarizə daha çox qlobal xarakter alır ki, bu da enerji təminatında çox böyük problemlər yaradır. Dünya birlikləri, beynəlxalq təşkilatlar, əlaqədar qurumlar bu problemlərin nə olduğunu yaxşı başa düşürlər. Ona görə də vəziyyətdən çıxış yolları axtarırlar və həmin yollardan biri də "yaşıl hidrogen"dir.

Hidrogen Yer üzündə ən çox yayılmış element olsa da, ətraf mühitdə sərbəst mövcud deyil, hər zaman digər elementlərlə birləşir (məsələn, hidrogen birləşməsindən əmələ gələn $H_2O$ (su), $CH_4$ (metan qazı), $H_2SO_4$ (sulfat turşusu) və s.). Ona görə də hidrogendən enerjidə istifadə etmək üçün onu digər elementlərdən ayırmaq lazımdır. Elə mütəxəssislər də deyirlər ki, "yaşıl hidrogen" əsas enerji mənbəyi deyil, sadəcə enerji daşıyıcısıdır. Amma başqa bir "yaşıl hidrogen" növü də var. O, heyvandarlıq və digər kənd təsərrüfatı tullantılarından alınan bioqazdan istehsal olunur.

Bu gün Azərbaycanın "yaşıl hidrogen" istehsalı üçün potensial çoxdur. Bunu "Atlantic Council"in baş elmi əməkdaşı, Beynəlxalq Vergi və İnvestisiya Məsələləri Mərkəzinin enerji, artım və təhlükəsizlik üzrə direktoru Ariel Koen də təsdiq edib. O, bu barədə fikir söyləyərkən qeyd edib ki, hidrogen nisbətən yeni tədqiqat sahəsidir və hər hansı proqnoz vermək hələ tezdir: "Amma Azərbaycanın günəş və külək kimi bərpaolunan enerji mənbələrinin inkişafındakı potensialını nəzərə alsaq, "yaşıl hidrogen"in istehsalı bu baxımdan çox perspektivlidir". A.Koen bu sahənin bilicisi kimi fikirlərinin davamı olaraq deyib: "Azərbaycan günəş və külək enerjisi imkanlarını artırarkən eyni vaxtda suyu hidroliz edərək "yaşıl hidrogen" əldə etmək mümkündür. Bundan əlavə, təbii qazı emal etməklə hidrogen əldə edilə bilər ki, bu da nəticədə bizə "mavi hidrogen" verəcəkdir. Beləliklə, əminəm ki, bütün bunları Azərbaycanda həyata keçirmək mümkündür".

Məlum olduğu kimi, ötən ilin dekabrında Buxarestdə Azərbaycan, Gürcüstan və Rumıniya hökumətləri arasında "Yaşıl enerji"nin inkişafı və ötürülməsi haqqında" strateji əməkdaşlıq müqaviləsi imzalanmışdır. Müqaviləyə görə, sənəddə nəzərdə tutulanların tam reallaşması 2030-cu illərə təsadüf edəcək. Bunun üçün öncə Rumıniyaya Azərbaycandan başlayan və Gürcüstanda Qara dənizin altından keçməklə 2,5 milyard dollara başa gələcək 10 GB gücündə super elektrokabel çəkilməlidir.

"Boston Consulting Group" (BCG) şirkətinin idarəedici direktoru və tərəfdaşı Vladimir Roqovun fikrincə, 2050-ci ilədək dünyada aşağı karbonlu hidrogenə yatırılacaq investisiyalar 6-12 trilyon ABŞ dolları təşkil edəcək: "Lakin bunun 300-700 milyard ABŞ dollarını artıq 2030-cu ilədək ayırmaq lazımdır. Azərbaycan özünün unikal rəqabət üstünlükləri sayəsində hidrogen trendinin benefisiarlarından birinə çevrilə bilər. "Yaşıl hidrogen" sənayesinin inkişafı üçün bütün faktorların mövcudluğu sayəsində Azərbaycan regional lider və Aİ üçün etibarlı tədarükçü ola bilər. "REPowerEU" Avropa güzəştli maliyyələşdirmə proqramı çərçivəsində "yaşıl enerji" layihələrinin dəstəklənməsi və investorların artmaqda olan marağı ölkənin bərpaolunan enerji mənbələri (BEM) və hidrogen sektorunun sürətli inkişafına əlverişli şərait yaradır".

Göründüyü kimi, Prezident İlham Əliyevin müxtəlif enerji mənbələrinin inkişafı üçün doğru zaman seçimi, qətiyyətli və cəsarətli addımlarının ardıcıllığı enerji təhlükəsizliyinə töhfə verir, "yaşıl enerji"yə problemsiz keçmək üçün təminat yaradır. "Yaşıl iqtisadiyyat"ın güclənməsi və "yaşıl enerji" ilə yanaşı, "yaşıl hidrogen"in də istehsalının artırılması həm bir çox problemin həllində, o cümlədən ekoloji problemlərin və resurs çatışmazlığının aradan qaldırılmasında vacib rol oynayır, həm də insan fəaliyyətinin və müdaxiləsinin ətraf mühitə mənfi təsirlərini azaltmağa imkan yaradır, atmosferin çirklənməsini azaldır, təbiət və insanlar üçün daha zərərsiz enerji resursları mənbələri formalaşdırır.

***Züleyxa ƏLİYEVA,***
***"Azərbaycan"***


# OXUCULARIN NƏZƏRİNƏ!

## "AZƏRBAYCAN" *qəzetinə*

***2024-cü il üçün abunə yazılışına başlanılır!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |




**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**

**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*


# Ölkə ərazisində hava əsasən yağmursuz keçəcək

**Azərbaycanda oktyabrın 8-nə gözlənilən hava proqnozu açıqlanıb.**

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında hava şəraitinin əsasən yağmursuz keçəcəyi gözlənilir. Mülayim cənub-qərb küləyi əsəcək, arabir güclənəcək. Havanın temperaturu gecə 15-19°, gündüz 22-27° isti olacaq. Atmosfer təzyiqi 765 millimetr civə sütunundan 761 millimetr civə sütununa enəcək. Nisbi rütubət 60-70 faiz təşkil edəcək.

Naxçıvan şəhərində, Culfa, Ordubad, Sədərək, Şahbuz və Şərur rayonlarında hava əsasən yağmursuz keçəcək. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 9-14°, gündüz 21-26° isti olacaq.

Xankəndi şəhərində, Şuşa, Xocalı, Xocavənd, Ağdam, Daşkəsən, Gədəbəy rayonlarında hava əsasən yağmursuz keçəcək. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir sürətlənəcək. Havanın




temperaturunun gecə 5-10°, gündüz 13-18° isti olacağı proqnozlaşdırılır.

Şərqi Zəngəzur: Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın, Zəngilan rayonlarında hava əsasən yağmursuz keçəcək. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Qərb küləyi əsəcək. Havanın temperaturunun gecə 5-10°, gündüz 13-18° isti olacağı bildirilir.

Gəncə şəhərində, Qazax, Goranboy, Tərtər, Füzuli rayonlarında hava əsasən yağmursuz keçəcək. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 10-15°, gündüz 22-27° isti olacağı ehtimal edilir.

Mingəçevir şəhərində, Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Ağdaş, Göyçay, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gecə bəzi dağlıq ərazilərdə qısamüddətli yağış yağacağı ehtimalı var. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Qərb küləyi ayrı-ayrı yerlərdə sürətlənəcək. Havanın temperaturunun gecə 8-13°, gündüz 20-25° isti, dağlarda gecə 5-10°, gündüz 17-22° isti olacağı ehtimalı var.

Şirvan şəhərində, Yevlax, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Saatlı, Hacıqabul, Zərdab, Salyan, Neftçala rayonlarında hava əsasən yağmursuz keçəcək. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 14-18°, gündüz 24-29° isti olacağı gözlənilir.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara, Biləsuvar, Cəlilabad rayonlarında hava əsasən yağmursuz keçəcək. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Şimal-şərq küləyi əsəcək. Havanın temperaturu gecə 12-16°, gündüz 23-28° isti, dağlarda gecə 10-13°, gündüz 18-23° isti olacaq.

# Bakıda "Nine Senses Fest" beynəlxalq mənəvi və fiziki təcrübələr festivalı keçirilir





**Bakıda "Nine Senses Fest" beynəlxalq mənəvi və fiziki təcrübələr festivalının təntənəli açılış mərasimi olub. Açılış mərasimi festivalın tərəfdaş məkanlarından biri olan "The Club Port Baku" idman klubunda keçirilib. Özünüinkişaf və sağlamlıq sahəsi üzrə bu miqyasda möhtəşəm tədbir Azərbaycanda ilk dəfədir təşkil olunur. Heydər Əliyev Fondunun vitse-prezidenti, "Nine Senses" incəsənət mərkəzinin təsisçisi Leyla Əliyevanın dəstəyi ilə keçirilən festivalda üç gün ərzində Azərbaycanın, həmçinin dünyanın ən peşəkar mütəxəssislərinin ustad dərsləri təşkil olunacaq.**

AZƏRTAC xəbər verir ki, festivalın açılış mərasimində "Nine Senses" yaradıcılıq və özünüinkişaf mərkəzinin akademik direktoru və Beynəlxalq "Nine Senses" festivalının həmtəşkilatçısı Natalya Jukova çıxış edib. O, çıxışında ölkəmizdə sağlam həyat tərzinin inkişafı və təbliği baxımından festivalın keçirilməsinin əhəmiyyətini qeyd edib. "Biz festivalı iki həftəyə hazırladıq, bu, inanılmazdır! Komanda qısa müddət ərzində bu cür böyük layihəni həyata keçirməklə möhtəşəm iş bacardı. Qeyd edim ki, festival növbəti iki gün ərzində daha da canlanacaq. Bu gün rahat səhər məşqləri ilə başladıq - tsiqun və nəfəsalma texnikaları. Oktyabrın 7-də isə hedlaynerlərimiz - İmran Kriya, Nandan Gautam, Anna Vladimirovanın çıxışları ilə davam edəcəyik.

Bazar günü isə "Sea Breeze Event Hall"da biznes panel və "Nine Senses"də müxtəlif və maraqlı proqram planlaşdırılır. Axşam konsertləri, tematik yarmarka, rəqs improvizasiyaları keçiriləcəkdir. Bütün bunlar festival iştirakçılarına yeni təcrübələr və unudulmaz anlar yaşadacaq.

Hər il keçiriləcəyini gözlədiyimiz layihəmizə "Nine Senses"in təsisçisi Leyla xanım dəstək göstərib. Məqsədimiz üç istiqamətdə fəaliyyət göstərən peşəkar mütəxəssisləri bir araya gətirmək və festival ərəfəsində onların təcrübələrini festival iştirakçılarına təqdim etməkdir", - deyə Natalya Jukova bildirib.

Festival iştirakçılara insanın harmonik inkişafı ilə bağlı, demək olar ki, bütün müasir dünya tendensiyaları ilə tanış olmaq imkanı verəcək. Festival ərəfəsində kriya, kundalini, hatha, nidra, bədii yoqa, meditasiya təcrübələri, bədənyönümlü təcrübələr, rəqs məşqləri, saund-hilinq, stretçinq və gimnastika, tsiqun, terapevtik qrup məşqləri, emosional zəkanın inkişafına yönəlmiş fərqli sahələr üzrə kouçinq, müxtəlif növ art-terapiyalar təşkil olunacaq.

Bildirək ki, "Nine Senses Fest" beynəlxalq mənəvi və fiziki təcrübələr festivalı oktyabrın 8-dək davam edəcək.

Xatırladaq ki, festival ANSA təhsil platforması ilə birgə təşkil olunub.

# Saatlıda "Tariximizi danışan rəsmlər" adlı layihəyə başlanılıb

**Saatlıda "Tariximizi danışan rəsmlər" adlı layihə start alıb. Layihə üzrə keçiriləcək təlimlərdə 6-9-cu sinif şagirdləri iştirak edəcək və onlar Azərbaycan tarixində iz salan tarixi hadisələrin araşdırılması və dərindən öyrənilməsi məqsədilə tarixi rəsmlərin təsvir edilməsində yer alacaqlar.**

AZƏRTAC xəbər verir ki, Təhsildə İnkişaf və İnnovasiyalar üzrə VII qrant müsabiqəsinin qalib layihələrindən olan "Tariximizi danışan rəsmlər" adlı layihənin açılış tədbiri olub.

Saatlı rayonu Gənclər Mərkəzində keçirilən tədbirdə Mil-Muğan Regional idarəsinin nümayəndələri, məktəb kollektivi, layihəyə cəlb olunan şagirdlər və onların valideynləri iştirak ediblər. Əvvəlcə Dövlət himni səsləndirilib, Ulu Öndər Heydər Əliyevin və şəhidlərimizin xatirəsi sükutla anılıb.

Layihə rəhbəri Kəmalə Qədirli bildirib ki, layihə Saatlı rayon Səməd Vurğun adına 1 nömrəli tam orta məktəbdə tədris olunacaq və təlimlərə 6-9-cu sinif şagirdləri cəlb ediləcək. Hər təlim 4 akademik saat olmaqla ümumilikdə 10 təlim keçiriləcək. İlk təlim "Azərbaycan Respublikasının müstəqillik qazanması" mövzusuna həsr olunacaq.

Bildirilib ki, "Heydər Əliyevin iqtisadi uğurları - "Əsrin müqaviləsi" ölkəmizin intibahı və dirçəlişi" və "İlham Əliyevin rəhbərliyi ilə həsrətə son qoyan "Dəmir yumruq" əməliyyatı" mövzularında da şagirdlərə geniş məlumat veriləcək.

Təlimlər zamanı "Qanlı Yanvar - Hüzn Günü", "Qarabağda yaşayan xoşbəxt Azərbaycan xalqı", "Xocalı faciəsi və torpaqlarından didərgin düşən xalq" "Xarıbülbül ətirli Saatlı şəhidləri" və digər mövzularda da məruzələr dinləniləcək.

Qeyd edilib ki, layihənin əsas məqsədi şagirdlərin rəssamlıq bacarıqlarının inkişafı ilə paralel olaraq onların tarixi hadisələri daha dərindən araşdırıb rəsmlərdə təsvir etməsinə kömək etməkdir. Eyni zamanda təsviri incəsənət dərslərinin tarix fənni ilə inteqrasiyası şagirdlərimizin həm təsviri bacarıqlarının inkişafına, həm də Vətənimiz üçün önəmli, unudulmaz olan hadisələrin təsviri ilə onların vətənpərvər ruhda yetişməsinə, tarixi hadisələri daha dərindən araşdırıb qavramalarına imkan verəcək. Layihə əsasında Saatlı rayon ümumtəhsil məktəblərində təhsil alan təsviri incəsənətə marağı, bacarığı olan 15 şagird seçiləcək, Azərbaycan tarixində iz salan tarixi hadisələrin araşdırılması, dərindən öyrənilməsi məqsədilə tarixi rəsmlərin təsvir edilməsi istiqamətində dərslər təşkil ediləcək və rəsmlərin sərgisi keçiriləcək, digər məktəblərin şagirdləri sərgilərə dəvət olunacaqlar.

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Baş Prokurorluğunun kollektivi Gəncə şəhər prokurorunun köməkçisi Şəfiqə Əliyevaya atası

**NADİR MÜƏLLİMİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov və icra hakimiyyətinin kollektivi Azərbaycan Dövlət İdarələri və İctimai Xidmət İşçiləri Həmkarlar İttifaqı Gəncə Şəhər Komitəsinin sədri

**ÜLVİYYƏ VƏLİYEVANIN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin rəhbərliyi Ruslan Sadıxova atası

**OQTAY SADIXOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

**"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir**

**Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır**

**Gündəlik rəsmi dövlət qəzeti**

**Tiraj 5348**
**Sifariş 2558**

**Qiyməti 40 qəpik**